**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda dövlətin antiinhisar tənzimləmə siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Salahov Arif Şahin**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**________________________ imza**

**“___” ____________ 2020-ci il**

# “Azərbaycanda dövlətin antiinhisar tənzimləmə siyasəti və onun təkmilləşdirilməsi istiqamətləri”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060404- İqtisadiyyat

**İxtisaslaşma:** İqtisadi Nəzəriyyə

**Qrup:** 12

**Magistrant:**
**Salahov Arif Şahin oğlu**

**_________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d. b/m Quliyeva Günay Ümüdvar qızı**

**___________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**___________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________ imza**

**BAKI - 2020**

## Elm andı

Mən Salahov Arif Şahin oğlu and içirəm ki "Azərbaycanda dövlətin antiinhisar tənzimləmə siyasəti və onun təkmilləşdirmə istiqamətləri" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# AZƏRBAYCANDA DÖVLƏTİN ANTİİNHISAR TƏNZİMLƏMƏ SİYASƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## XÜLASƏ

**Mövzunun aktuallığı: İnhisarlar iqtisadiyyata mənfi təsir göstərir. Əgər şirkət bazarda inhisarçıdırsa, məhsulun qiyməti qalxır, keyfiyyət aşağı düşür. İnhisarçılıq inkişaf etmiş ölkələrin satış prosesini ləngidir, buna görə də dövlətlər rəqabətin qorunması və inhisarçılığa qarşı mübarizənin mövcud problemlərini araşdırır, antiinhisar orqanları müvafiq qanunvericilik əsasında azad rəqabətin təmin edilməsinə xüsusi nəzarət edirlər. Digər ölkələrdə olduğu kimi Azərbaycanda da bu problemin aradan qaldırılması dövlətin əsas prioritetlərindən biridir. Ölkəmizdə "Anttinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunu və digər hüquqi aktlar qəbul edilmişdir.**

**Tədqiqatın məqsəd və vəzifələri: Tədqiqatın məqsədi antitrest siyasətinin aparılması yollarını araşdırmaq və bunun ölkənin inkişafına təsirini təhlil etməkdir.**

**Tədqiqatın məqsədlərinə daxildir:**

- **Ölkəmizdə antiinhisar siyasətinin təhlil edilməsi və qiymətləndirilməsi**
- **Antiinhisar siyasətin hüquqi əsaslarının analizi**
- **Rəqabətə mənfi təsir edən amillərin məhdudlaşdırılması yollarının təklif olunması**

**Tədqiqat metodları: Metod olaraq isə müşahidə, anket, müqayisəli analiz, sintez metodlarından istifadə olunmuşdur. Bu metodlarla tədqiqat işini effektiv araşdırmaq mümkündür.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat bazasında dərsliklərdən, məqalələrdən və qəzetlərdən, internet resurslarından, rəsmi sayt məlumatlarından, Statistika Komitəsinin materiallarından və hesabatlarından istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Mövzunu daha yaxşı araşdırmaq üçün informasiya bazası kifayət qədər deyil.**

**Nəticələrin elmi-praktiki əhəmiyyəti: İnhisarçılığa qarşı mübarizədə ölkənin atdığı addımlar nəzərdən keçirilir, ölkənin antitrest siyasətinin təkmilləşdirilməsi istiqamətləri təhlil edilir və öyrənilir.**

**Açar sözlər: antiinhisar, siyasət, iqtisadiyyat, rəqabət**

## ANTITRUST REGULATION POLICY IN AZERBAIJAN AND DIRECTIONS FOR ITS IMPROVEMENT


## SUMMARY

**The relevance of the research: Monopolies have a negative impact on the economy. If the company is a monopolist, the price of the product rises in the market, the quality decreases. Monopolies slow down the sales process of developed countries, therefore, states are investigating the current problems of competition protection and the fight against monopolies, antitrust authorities have special control over the provision of free competition on the basis of relevant legislation. Elimination of this problem in Azerbaijan, as in other countries, is one of the main priorities of the state. The Law of the Republic of Azerbaijan "Antimonopoly Activity" and other legal acts have been adopted in our country.**

**Purpose and Objectives of the Study: The purpose of the study is to investigate the ways of conducting antitrust policy and analyze its impact on the country's development. Includes research objectives:**

- **Analysis and evaluation of antitrust policy in our country**
- **analysis of the legal basis of antitrust policy**
- **Suggest ways to limit the factors that negatively affect competition**

**Research Methods: As a method, observation, questionnaire, comparative analysis, synthesis methods were used. With these methods, It is possible to effectively investigate the research work.**

**Research Information Database: The research database used textbooks, articles and newspapers, internet resources, official site information, and materials and reports of the Statistical Committee.**

**Research Restrictions: Insufficient data base to better investigate the subject matter.**

**The results of the research: The President's instructions to improve antitrust policy in Azerbaijan play an important role.**

**Scientific-practical significance of the results: The steps taken by the country in the fight against monopolies are reviewed, as well as the directions of improving the country's antitrust policy are analyzed and studied.**



**Key words: Antitrust, policy, economy, competition**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AMB** | Avropa Mərkəzi Bankı |
| **COVİD-19** | Koronavirus |
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **MDB** | Müstəqil Dövlətlər birliyi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

**MÜNDƏRİCAT**

**GİRİŞ**........................................................................................................ 8

**I FƏSİL. MİLLİ İQTİSADİYYATDA RƏQABƏT MÜHİTİ VƏ İNHİSARÇILIQ FƏALİYYƏTİNİN NƏZƏRİ ƏSASLARI**................................ 13

1.1. Rəqabət, inhisarçılıq anlayışları və iqtisadiyyata təsirlərinin qiymətləndirilməsi...................................................................................... 13

1.2. İnhisarçılıq və onunla mübarizənin dünya təcrübəsi ........................................... 23

**II FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA ANTİİNHİSAR SİYASƏTİN TƏŞKİLATİ-HÜQUQİ FORMALARI**................ 26

2.1. Antiinhisar siyasətinin normativ-hüquqi əsaslarının qiymətləndirilməsi, qiymətə nəzarət mexanizmləri ........................................................................ 26

2.2. Təbii inhisar subyektlərində dövlət tənzimlənməsinin müasir vəziyyəti............. 39

**III FƏSİL. STRATEJİ YOL XƏRİTƏSİNƏ ƏSASƏN RƏQABƏTQABİLLİYYƏTLİ İQTİSADİYYATIN FORMALAŞDIRILMASI VƏ ANTİİNHİSAR TƏNZİMLƏMƏ MODELLƏRİNİN İQTİSADİ ANALİZİ**................................................. 42

3.1. Milli bazarlarda rəqabət mühitinin təmin olunmasında dövlət tənzimləməsinin təkmilləşdirilməsi prioritetləri............................................................................. 42

3.2. Strateji Yol Xəritəsində səmərəli biznes mühitin formalaşdırılmasında, rəqabətqabiliyyətliyin yüksəldilməsində dövlətin strateji hədəflərinin və prioritetlərinin qiymətləndirilməsi ........................................................................ 52

3.3. Milli iqtisadiyyatda inhisarlaşma hallarının qarşısının alınmasında dövlətin rolunun qiymətləndirilməsi və müxtəlif ölkələrdə qəbul olunan tənzimləmə modellərinin iqtisadi analizi ........................................................................... 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**........................................................................ 68

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**........................................... 72

Cədvəllərin siyahısı ........................................................................................... 75

Sxemlərin siyahısı ............................................................................................... 75

# GİRİŞ

**Mövzunun aktuallığı:** Nəzəriyyələrdən və təcrübələrdən məlumdur ki, inhisarçı mövqenin yaranması iqtisadi inkişafı ləngidir, istehsal prosesinə ciddi zərbə vurur, rəqabətqabiliyyətli satışa mənfi təsir edir, bir sözlə bazarın tələb və təklif əsasında fəaliyyətinə imkan vermir, bazarda alıcı ilə satıcı arasında münasibət bir tərəfin diktəsinə əsasən qurulur. İqtisadi fikir tarixində real olaraq ilk dəfə inhisarçılığın elementlərindən merkantilistlər istifadə etmişlər. Onlar idxal və ixrac əməliyyatlarına nəzarət etməklə, idxalın az, ixracın çox olmasına tələb edərək, sahibkarlığın başlanğıcını pulda görürdülər. Onların fikrincə qiymətli materiallarının yığımı ilə dövlətin sərvətin artırmaq olar. Bu yollarla onlar inhisarizm üsullarını tətbiq edirdilər. Daha sonralar bu anlayış bütövlükdə iqtisadiyyatı əhatə etmişdir. Təsərrüfat subyektlərinin əmtəə və xidmətlər üzərində qiymət diktə etməsi digər rəqiblərin bazara daxil olmasına mane olur, istehsal prosesində elmi texniki tərəqqinin məhsullarından istifadə edilmir, belə olan halda inhisarçı firma malın keyfiyyətinə deyil, qiymətinin və həcminin artırılmasına çalışır. Tarixi xronoloji prizmadan yanaşsaq, inhisarçılıq bazar iqtisadiyyatının mövcud olduğu dövrlərdən yaranmağa başlayıb. Lakin, əksər elmi ədəbiyyatlarda terminin XIX əsrin sonu XX əsrin əvvəllərindən alqı-satqı fəaliyyətində real olaraq büruzə verdiyi qeyd olunub.

İnhisarçılıq inkişaf etmiş ölkələrin mübarizə apardığı bəla sayılır, çünki bu münasibət effektiv satış prosesini ləngidir. Ona görə də, dövlətlər rəqabətin qorunması və inhisarçılıqla bağlı mübarizənin aktual problemlərini araşdırır, antiinhisar orqanları müvafiq qanunvericilik əsasında azad rəqabətin təmin olunmasını xüsusi nəzarətdə saxlayırlar. Digər dövlətlərdə olduğu kimi Azərbaycanda da qeyd olunan problemi aradan qaldırmaq dövlətin əsas prioritetlərinə daxildir. Ölkəmizdə “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu və digər hüquqi aktlar qəbul edilmişdir. Qanun inhisarçılıqla mübarizənin mütəşəkkil aparılmasını, bazarın liberallaşdırılması istiqamətində qarşıya çıxan maneələrin ləğv edilməsini, sahibkarlıq işinin əlverişli mühitə uyğunlaşdırılmasını nəzərdə tutur. Antiinhisar qanunvericiliyinin tərkibinə

“Təbii inhisarlar haqqında” , “Haqsız rəqabət haqqında” qanunları və digər normativ hüquqi aktlar daxildir.

Bazar iqtisadiyyatının təməl prinsiplərindən biri hesab olunan “rəqabətli satış” mühitinin yaradılmasına təsir göstərən təkəlçilik fəaliyyəti müasir problemlərin ilk sıralarında yer alır. Yuxarıda sadaladıqlarımız nəticələri ümumiləşdirərək qeyd edə bilərik ki, inhisarçı mühit dayanıqlı inkişafı ləngitdiyi , maliyyə əməliyyatlarının çevikliyinə mənfi təsir göstərdiyi, habelə istehlakçı hüquqlarına zidd olduğu üçün bununla mütəşəkkil şəkildə antiinhisar tədbirlərinin aparılması ölkəmizdə aktual iqtisadi mövzulardandır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Hələ iki əsr bundan əvvəl real iqtisadi güc olaraq öyrənilməyə başlanılan bu termin çox alimlərin tədqiqat mövzusu olub. Bu Məşhur Amerikan iqtisadçısı P. Samuelson inhisarı sırf bazar fenomeni adlandıraraq, bir çox təcrübü önəm kəsb edən fikirlər demişdir. İqtisadçının fikrincə müəssisənin xarakterinin tam olaraq müəyyənləşdirilməsində vahid məqsəd tələb əyrisinin üfüqiliyidir. Belə ki, şirkətin məhsulları satışa çıxarılan zaman qiymət aşağı düşür, həmin məhsula olan tələb sabit qalırsa, bu halda şirkət inhisarçı sayılmır. Daha dəqiq desək, Samuelsonun yazır ki, müəssisənin inhisarçılığını müəyyənləşdirmək üçün onun davranış tərzini analiz etmək lazımdır.

E. Meyson yazır ki, fərqli firmaların ticarət aktivliyinin qiymətləndirilməsinin inhisarla birbaşa bağlılığı yoxdur . İdarəetmə ideasının banisi hesab edilən Piter Draker Çemberlinin inhisar nəzəriyyəsinə fərqli şəkildə yanaşaraq qeyd edir ki, bazara birbaşa nəzarət etmək inhisarçılıq anlayışını tam ifadə etmir. O təklif edirdi ki, bunun əvəzində istehsal prosesləri üzərində hökmran olanlar inhisarçı sayıla bilər.

Daha bir tanınmış iqtisadçı A.Piqunun fikrincə inhisarçı hakimiyyət təsadüfi yaranmamışdır. O firmanın gələcək planlarının məntiqi nəticəsidir. İqtisadi araşdırmaçıların fikirlərinə görə inhisarçılıq sosial-iqtisadi inkişafı zəiflədərək, satış mərhələlərində qarşıya çıxan problemlərin həll edilməsinə maneçilik törədir. Avstraliya əsilli Amerikan iqtisadçısı Y. Şumpeter öz əsərində

bu termin haqqında bəhs edərək yazır ki, inhisarçılığa qarşı neqativ fikirlər ilk dəfə XVI-XVII-ci əsrlərə İngiltərədə meydana gəlmişdir.

Əcnəbi mütəxəssislərdən başqa yerli iqtisadçı alimlər də müxtəlif dövrlər üzrə təhlillər hazırlayaraq haqsız yollarla səmərəli bazar mexanizmlərinin inkişafına zərər vuran maneələri dəyərəndirərək məsələyə öz münasibətin bildiriblər. Məşhur iqtisadi fikirləri olan Əvəz Bayramov bu məsələyə xüsusi diqqət göstərərək “İnhisarizm” adlı əsərini yazıb kitab halında oxuculara çatdırmışdır. O elmi əsərində yazır... “İnhisar istər bazarın atributu, istərsə də ictimai iqtisadi münasibətlərin xüsusi tipi formasında iqtisadi “Mən”in kulminasiya nöqtəsi kimi təzahür edir. Sadəcə olaraq, inhisarçı fəaliyyətin meydana çıxması fərdiyyətçiliyin qabarıq nümayişindən başqa bir şey deyildir” (Bayramov.Ə.İ, “İnhisarizm”.,2002. s 44).

İqtisadçı ekspert Məhəmməd Talıblı inhisarı rəqabətin düşməni adlandırır, bu fəaliyyətin dinamik inkişafı ləkələdiyini vurğulayır. O qeyd edir ki, istehsalın və kapitalın transmilliləşməsi bu faktoru getdikcə sürətləndirir.

Bundan başqa, inhisarçılığın iqtisadiyyata təsiri haqda A.D. Çudakovun, M.X. Meybullayev, M.A. Əhmədov, K.A.Şahbazov, T.Ə Quliyev, Ə.İ.Bayramovun və.s yerli alimlərin fikirləri də mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Məlumdur ki, bazarda firmanın inhisarçılıq mövqeyi səmərəli satışa mənfi təsirlər göstərir. Bunları nəzərə alaraq, düzgün bazar münasibətlərinin formalaşmasına şərait yaratmaq hər bir dövlətin prioritet məqsədlərindəndir.

Biz bu dissertasiya işində rəqabətqabiliyyətli satışı formalaşdırmağa mane ola biləcək amilləri araşdırıb, Azərbaycanda bu sahədə aparılan işləri təhlil edib nəticə və təkliflərimizi bildirəciyik.

Məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr icra olunmalıdır:

- Araşdıracağımız bazarın mövcud vəziyyəti qiymətləndirilməlidir;
- İnhisarçılığın Azərbaycan iqtisadiyyatına vurduğu ziyan təhlil edilməlidir;
- Antiinhisar tənzimləmələrinin ölkə iqtisadiyyatına təsirlərininqiymətləndirilməsi;
- Antiinhisar qanunvericiliyinin nəzəri hüquqi əsaslarının öyrənilməsi;

- Dövlətin antiinhisar tənzimləmə fəaliyyətinin təkmilləşdirilməsi istiqamətlərinin təhlil olunaraq dəyərləndirilməsi;
- Rəqabətə meyilli satış proseslərinə mane olan elementlərin müəyyənləşdirilməsi və.s

**Tədqiqatın obyekti və predmeti:** Biz elmi araşdırmamızda obyekt olaraq Azərbaycanda ilk yaranan və 4,8 milyon abunəçisi olan Azərcelli və təbii inhisar subyektlərindən bir neçəsini təhlil edəciyik. Azərcell şirkəti 24 illik fəaliyyət müddətində ölkəmizin telekommunikasiya sektorunun inkişafına, həmçinin əhalinin bir-birilə rahat ünsiyyət qurmasına köməklik göstərmişdir. Digər təbii inhisar subyektləri isə sosial təbəqənin həyat fəaliyyətinin yaxşılaşdırılması istiqamətində mütəmadı tədbirlər həyata keçirir.

Mövzunun predmeti isə mövcud bazar iqtisadiyyatında ölkəmizdə antiinhisar tənzimləmə tədbirlərin təşkili istiqamətləridir.

**Tədqiqat metodları:** Hər bir elmi işin hazırlamaq, effektiv təhlil etmək üçün müəyyən metodlardan istifadə olunur. Tədqiqat apardığımız dissertasiya işində müşahidə , məlumatların toplanması və seçilməsi, müqayisə, induksiya və deduksiya, məntiqi ümumiləşdirmə, tarixi, sistem və analıiz və.s metodlardan istifadə olunmuşdur. Bu metodlardan səmərəli, düzgün, dəqiq istifadə olunması araşdıracağımız mövzunu daha dərindən öyrənməyə imkan yaradır. Qeyd etmək lazımdır ki, bu metodlar da öz aralarından bir-birindən asılıdır.

**Tədqiqatın informasiya bazası**: Dissertasiya işi hazırlanarkən müxtəlif elmi ədəbiyyatlardan və elmi əsərlərdən, dərsliklərdən, həmçinin müxtəlif internet resurslarından istifadə edilmişdir. Tədqiqatın unikal olmasının əsas meyarlarından biri də elmi işin istinad elədiyi ədəbiyyatların bolluğudur. Başqa sözlə desək, əgər mövzuya adekvat hesab olunan informasiya bazasının sayı yətərincədirsə, o zaman tədqiqat bir o qədər keyfiyyətli aparılar.

**Tədqiqatın məhdudiyyətləri:** Bəzən elmi işi hazırlayarkən bir neçə məlumatları tapmaq çətin olur. Bu da tədqiqatın keyfiyyətinin aşağı olmasına təsir edir.

**Tədqiqatın yeniliyi:** Dissertasiya işinin yeniliyi aşağıdakılardan ibarətdir:

- İnhisarçılığın sosial-iqtisadi sferaya vurduğu təsirlər qiymətləndirilmişdir.
- Ölkəmizdə inhisarçılıq mövqeyinin elementləri təhlil edilmişdir;
- Sağlam rəqabətə zərbə vuran, inhisarçılığa səbəb olan amillər təhlil olunmuşdur;
- Dövlətin antiinhisarçı siyasətində müasir metodlardan istifadəsi göstərilmişdir;
- İnhisarçılıq fəaliyyətin məhdudlaşdırılması yolları, mövzu ilə bağlı, qanunvericilikdə əks olunmuş nəzəri əsaslarının öyrənilməsi;
- İnhisarçılıqla mübarizə aparan qurumlar və onların fəaliyyət istiqamətləri təhlil edilmişdir;
- Qloballaşma dövründə inhisarçılıqla mübarizədə dünya ölkələrinin təcrübəsi öyrənilmişdir;

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Qeyd olunanları ümumiləşdirərək tədqiqatın əhəmiyyətini belə izah edə bilərik: İstehsal və satış fəaliyyətinə inhisarçı müəssisələrin qoşulması iqtisadiyyat üçün arzuolunmaz hesab olunur. Bu problemlərin aradan qaldırılması üçün hər bir dövlət müxtəlif yollarla antiinhisar tənzimləmə siyasəti yürüdür. Tədqiqat işinin əhəmiyyəti ondan ibarətdir ki, bu elmi işdə bir ölkənin inhisarçılıqla mübarizədə atdığı addımlar nəzərdən keçirilib, həmçinin ölkənin antiinhisar siyasətinin təkmilləşdirilməsi istiqamətləri təhlil olunaraq öyrənilir. Müxtəlif bazarlarda, idarətetmədə, ticarət, nəqliyyat və.s sahələrdə inhisarçı fəaliyyətə rast gəlmək olar.

# I FƏSİL. MİLLİ İQTİSADİYYATDA RƏQABƏT MÜHİT VƏ ANTİİNHİSARÇILIQ FƏALİYYƏTİNİN NƏZƏRİ ƏSASLARI

## 1.1. Rəqabət inhisarçılıq anlayışları və iqtisadiyyata təsirlərinin qiymətləndirilməsi

İqtisadiyyat elmi məhdud resurslar şəraitində tələbatların maksimum dərəcədə ödənilməsinin forma və üsullarını öyrənir. Tələbatların ödənilməsi üçün məhsul istehsal edən və ya satan müəssisə ilə istehlakçılar (alıcıların) qarşılıqlı fəaliyyət göstərməlidirlər. Bu hal bazar münasibətlərini yaradır. İstehsalçı firma ilkin olaraq məhsulun maya dəyərini hesablayaraq məhsulun istehsal və daşınma xərcin müəyyənləşdirir. Növbəti mərhələ isə məhsulun tanıdılması və alıcının istəklərinə uyğun qiymətin qoyulmasıdır. Bu strategiyaya ilə müəssisə digər rəqiblərindən daha çox mənfəət qazanmaq istəyir. Eynicinsli məhsul və xidmətlər təqdim edən müəssisələrin bir- birləri ilə apardığı keyfiyyət və qiymət yarışı rəqabət adlanır. Rəqabət şəraitində bazarda çoxlu sayda alıcı və satıcı olur. Potensial rəqiblərin istehsal etdikləri məhsullara daha çox alıcı toplamaq cəhdləri məhsulun həm qiymətini aşağı salır, həm də keyfiyyətini artırır. Deməli, rəqabət bazar subyektlərinin yarışıdır. Maliyyə aktivliyinin artırılmasında və səmərəli iqtisadi gücün formalaşmasında bazar subyektlərinin bir-birləri ilə rəqabət aparması vacib amildir. Məlumdur ki, müasir tipli iqtisadiyyatlarda rəqabətli satışın effektiv aparılması iqtisadi inkişafı stimullaşdırır. Çünki müəssisələr istehlakçı portfelin artırmaq üçün keyfiyyətli məhsul istehsal etməyə çalışırlar. Məsələn, eynicinsli məhsul istehsal edən bir firma yeni texnika və texnologiyalardan istifadə edərək, iqtisadiyyatda təşkilati-struktur dəyişikləri apararaq məhsulun maya dəyərini aşağı salır. Digər firma da eyni istehsalçı davranışları ilə alıcı məmnunluğunu artırmaq istəyir. Firmaların alıcı portfeli formalaşdırmaq istəkləri həm keyfiyyət standartlarını yaxşılaşdırır, həm də istehlakçı istəklərinə uyğun qiymət siyasəti yürüdür. İstənilən halda, müəssisələrin bir-birləri satış yarışı alıcılara faydalı olur. İqtisadi inkişafı stimullaşdıran

səbəblərdən biri də budur. Rəqabət mühitinin iqtisadi inkişafa olan təsirlərini növbəti mərhələlərdə geniş izah araşdırılacaq. Bazar münasibətlərində müəssisələrin bir-birləri ilə satış mübarizəsi aparması istehsalın çevikliyini dəstəkləməklə, digər tərəfdən də mübarizəyə gücü olmayan təsərrüfat subyektlərinin iflasına səbəb olur.

Rəqabət baxımından bazarlar 2 formaya ayrılır:

1) Rəqabətə azad bazarlar

2) Rəqabətə qeyri-mükəmməl bazarlar, bunlara inhisarçı oliqapolik və ya inhisarçı rəqabət bazarlar.

Rəqabətə azad bazarlarda bazar subyektlərinin istehsal edilən məhsula və qiymətinə təsir göstərmək imkanları məhdudlaşır. Bu bazarlarda qiyməti tələb müəyyən edir. Alıcılar və satıcılar bazara maneəsiz daxil olur, eyni zamanda azad şəkildə çıxa bilirlər. Güclü iqtisadi potensialı olan ölkələrdə ədalətli rəqabətin təmin olunmasında müxtəlif işlər görülür. Səmərəli biznes mühitinin formalaşmasına zidd olan haqsız rəqabətlə mübarizə tədbirləri bazar qiymətlərinin keyfiyyətə uyğun şəkildə təyin olunmasına səbəb olur.

Qeyri mükəmməl rəqabətli bazarlarda inhisarçı bazarlarin xüsusiyyətləri var. Daha doğrusu, inhisarçı bazarlar adlanır. Qeyri mükəmməl rəqabətli bazarlarda qiymətlər yüksək, səmərəli satış zəif, iqtisadi inkişaf minimum səviyyədə olur. İnhisarçılıq şəraitində əmtəə və xidmətlərin qiymətinə təsir göstərə biləcək digər iri subyektlərin olmaması istehlakçıların maraqlarına ziddiyyət təşkil edir. Belə ki, bazarda eyni əmtəə və xidmətləri təqdim edə biləcək başqa firma olmadığından firma məhsulun qiymətin həddən artıq yüksək qoyur. Müasir bazar iqtisadiyyatına tipik xüsusiyyətlər oliqapolik bazarlarda əksini tapıb. Oliqapolik bazarlarda qiymətlər tez-tez dəyişməyə meyilli olmur, uzun müddət sabit qalır. Bazarın bu növü haqqında dissertasiya işinin növbəti mərhələlərində ətraflı məlumat veriləcək (Vəliyev.T.S., Ə.P.Babayev., M.X. Meybullayev., 2011. s 223).

İqtisadçılar sahələr üzrə rəqabətin 2 əsas formasının olduğunu qeyd edirlər.

1. Sahədaxili rəqabət

2. Sahələrarası rəqabət aiddir.

Birinci forma eyni sahədə fəaliyyət göstərən müəssisələr arasında rast gəlinir. Yəni, eyni bir məhsulu 2-dən çox müəssisə istehsal etsə də müxtəlif şəraitlərdə hazırlanır. Bu zaman istehsalçı məhsulun maya dəyərin minumuma endirməyə çalışır. Hansı firma az xərclə məhsul istehsal edib bazara çıxarsa o firma daha çox mənfəət qazanacaq. Rəqabəti xarakterizə edən başlıca cəhətlər bunlardır. Bir sözlə, sahədaxili rəqabət mühitində müəssisə az xərclə maksimum mənfəət götürməyə çalışır.

Rəqabətin ikinci formasında firma səmərəli sahə axtarışındadır. Belə ki, sahibkar hansı sahəyə investisiya qoymağın daha çox gəlir gətirəcəyini əsas götürür. Müxtəlif sahələrə kapital qoyuluşları olan firmaların daha çox qazanc əldə etmək üçün müəyyən sahələr üzrə rəqabət aparirlar. Marksizm nəzəriyyəsinin banisi Karl Marks bu məsələ haqda yazır ki,müxtəlif istehsal sahələrindəki, kapitalların rəqabəti hərəkəti istehsal qiymətini yaradır ki, bu da müxtəlif sahələr arasında mənfəət normasını bərabərləşdirir.

İqtisadçılar rəqabətin iki növünün olduğunu qeyd edirlər.

1) Haqlı ( sağlam) rəqabət

2) Haqsız ( qeyri-sağlam) rəqabət

Birinci rəqabət növü qanuni üsullarla müəssisələrin rəqiblərindən daha çox mənfəət əldə etməyə cəhd göstərməsi nəticəsində yaranır. Haqlı rəqabət olan bazarlarda işçi qüvvələri, kapitallar manesiz hərəkət edir. Lakin müasir dövrdə bazarlarda sağlam rəqabətə rast gəlinmir. Alıcı sayını artırmaq, yüksək mənfəət əldə etmək üçün müəssisə qeyri-iqtisadi metodlardan istifadə edərək öz rəqibinə qalib gəlməyə çalışır. Qeyri-iqtisadi metodlara yüksək vəzifəli şəxslərin himayəsindən istifadə, reklamlar aparmaq, marka hazırlamaq kimi məsələlərdir.

Məşhur iqtisadçı A. Smit bu haqda yazır ki, bazar iqtisadiyyatında rəqabət ticarəti aktivləşdirən “gizli əl”dir. İngilis alimi istehlakçıların minumum qiymətlər səviyyəsində bazara daha çox gəldiyini bildirirdi. Məlumdur ki, bazarda rəqabətin olması faydalı alqı-satqı əməliyyatları üçün vacib amil hesab olunur.

**Sxem 1: Rəqabət mühitinin təmin edilməsinin iqtisadi nəticələri**




**Mənbə:** i.e.d.,prof Əvəz Bayramovun İnhisarizm kitabının məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır. Sxem nəticəsində rəqabətin iqtisadi nəticələri daha aydın göstərilir.

Rəqabət bazarda keyfiyyətli məhsul satışını təmin edərək bir çox funksiyaları yerinə yetirir

1) Qiymətlərin tarazlaşmasına səbəbdir. Bu fikir belə izah olunur: Bazar qiyməti tarazlılıq qiymətindən yuxarı ola bilər. Belə hal təklifin tələbdən çox olduğu zaman baş verir. Bazarda əmtəə artıqlığı yaranır. Müəssisələr və satıcılar məhsullarına yüksək qiymətlər qoyur. Bu rəqabətdə məhsulunu ucuz satan daha çox mənfəət əldə edir. Ona görə də satıcılar qiyməti aşağı salmağa məcbur olurlar və qiymət tarazlılıq nöqtəsinə doğru hərəkət etməyə başlayır. Əmtəənin qiymətləri minumum səviyyəyə çatdıqda artıq məhsullar da alınır və məhsul məhdudluğu yaranır.

2) Rəqabət əmtəələrin istehsalı və reallaşdırılması üçün ictimai normal şəraitin yaranmasına şərait yaradır. Rəqabət sayəsində eyni keyfiyyətli əmtəələr üçün bərabər qiymətlər müəyyən edir.

3) Yeni texnologiyaların tətbiqi və istehsalın səmərəliliyinin stimullaşdırılmasıdır. Başqa sözlə desək, istehsalda yeni innovasiyalardan istifadə edilməsidir. Müasir texnologiyaların tətbiqi sayəsində əmtəənin hazırlanmasına çəkilən xərc, sərf olunan əməyə qənaət olunur. Bunanla da, rəqabət aparan şirkətlər də yeni texnologiyalar əsasında məhsulların hazırlayır. Nəticədə, iqtisadi tərəqqiyə yol açılır.

4) Rəqabət sosial-iqtisadi təbəqələşməni gücləndirir. Belə ki, iqtisadi cəhətdən zəif olanlar digər müəssisələrlə rəqabətə tab gətirmir bazardan çıxır, güclü firmalar isə

daha da varlanır. Bu halların baş verməməsi üçün müəssisə məhsulu bazara çıxarmamışdan qabaq və ya məhsulu istehsal etməmişdən qabaq satış prosesin ətraflı təhlil etməlidir, fərdi satış strategiyasın müəyyənləşdirməlidir. Məhsulun qiymətinin müəyyənləşdirilməsi marketinq işinin ən mürəkkəb prosesidir. Qiymət strategiyasının qurulması və fərqli bazarın tələblərinə uyğunlaşdırılması üçün yüksək satış səriştəsi və bacarıqları lazımdır. Bazar qiyməti elastik və qeyri elastik formalarda olur. Əgər qiymət yüksələrkən tələb artıb-azalmırsa o zaman qiymət tam qeyri elastik olur. Qiymətin tam qeyri elastik olması, rəqabətə güclü zərbə vurub, bazarda inhisarçılığı yaranmasına səbəb olur. Məsələn: Firma gündəlik istehlak olunan, zəruri təlabat qidası hesab edilən çörəyin qiymətin qaldırmağına baxmayraq, qısa müddət çörəyə olan tələbat azalmır. Qiymətin yüksəlməsi nəticəsində tələb azalırsa bu hal qiymətin elastikliyi artır. Digər gündəlik malları da bunlara misal ola bilər (Sxem:1).

Müşahidələr nəticəsində müəyyən edilib ki, smartfonların istehsalından qabaq müştərilərin əksəriyyəti supermarketlərdən alış-veriş edərkən qiymətə fikir vermirdi. Lakin hazırda onlayn satış şəbəkələrinin genişlənməsi məhsulu digər mağazalarda araşdırmağa sövq edib. Düzdür, bu şərtlər firmaların haqsız mənfəət əldə etməsinə birbaşa mane olur. Məsələyə başqa cür yanaşsaq, alıcıların daha ucuz və ya keyfiyyətli mal almağa cəhd göstərməsi əmtəənin istehsal prosesini təkmilləşdirir, maya dəyəri xərclərini optimallaşdırır, istehlakçı loyallığına xidmət edir.

İqtisadi proseslərə təsir edən əsas fəaliyyətlərdən biri də inhisarçılıqdır. Bazar iqtisadiyyatında inhisarçılıq fəaliyyətinin özəl xüsusiyyətləri mövcuddur. Resursların qeyri-səmərəli bölgüsü, bazarda vahid qiymət hökmranlığı , məhsulların bir satıcı əlində cəmləşməsi, inkişafın ləngiməsi, rəqabətli satışa törədilən maneələr inhisarçılığı göstərən faktorlardır. Bu şəraitdə qiymətlər yüksək, məhsul istehsalı və çeşidi az olur.

Mənası "tək satmağı" ifadə edən bu anlayış milli iqtisadiyyatın əsas problemi sayılır. Hələ ötən əsrlərdən satıcılar gəlirlərini artırmaq üçün bazarın digər nümayəndələri ilə müqayisədə anti-rəqabət hərəkətlərinin tətbiqi metodlarını

araşdırırdılar. Məşhur Şotland iqtisadçısı A. Smit qeyd edirdi ki, eyni ticarət və sənətkarlıq nümayəndələri xalqa qarşı sui-qəsd və ya qiymətləri qaldırmaq üçün istəmədən də olsa görüşürlər. Bu üsulla onlar bazar hakimiyyətini ələ keçirməyin yollarını axtarırlar. İnhisarı rəqabətdən fərqləndirən əsas cəhətlərdən biri də qiyməti təyin etməsidir. Məlumdur ki, eyni əmtəə və xidmətlərinin satışı ilə məşğul olan müəssisə istehsal etdiyi məhsulun yeganə satıcısı olduğu, istehsal etdiyi əmtəənin yaxın əvəzedicisi olmadığı üçün daha çox mənfəət əldə etmək istəyir. Bu cür fəaliyyət zamanı qiymətlər yüksəlir, islehlakçı hüquqlarının müdafiəsi nəzərə alınmır. Əgər bazarda inhisarçı mövqeyi mövcuddursa, digər iştirakçıların bazara daxil olmasında maneələr yaranır. Bunun səbəbi mühüm sərvətin yalnız bir firmaya məxsusluğu, dövlət tərəfindən hər hansı bir firmaya bəzi əmtəə və xidmətləri istehsal etmək üçün müstəsna hüquq verməsidir.

Bu anlayış 19-cu əsrin ikinci yarısından etibarən istehsalın və kapitalın təmərküzləşməsi nəticəsində meydana gəlmişdir. Bazarda inhisarçılığın mövcud olması qiymətin tələb və təklif münasibətlərində formalaşmasına mane olur, daha çox mənfəət götürmək istəyən şirkət məhsul qiymətini özü təyin edir. O zaman firma bazardakı yerini müəyyən edə biləcək, gələcək təhlükələrdən qorunmaq üçün plan quracaqdır.

Bir çox hallarda bazarlarda firmaların satışa çıxardığı əmtəə və xidmətlərə yüksək qiymət qoymasının şahidi oluruq. Həmin məhsulu əvəz edə biləcək başqa bir məhsul olmadığından seçim imkanlarımız məhdudlaşır, nəticədə maya dəyərindən xeyli baha olan məhsulu alırıq. Artan qiymətlər inhisarlaşmanın bariz təzahürüdür. Təsərrüfat fəaliyyəti ilə məşğul olan firmanın istehsal etdiyi məhsulun həm keyfiyyət, həm də qiymət baxımından digər bir rəqibi yoxdursa, bu halda həmin sahə inhisarlaşmış hesab edilir. İnhisar və rəqabət bir-birinə zidd anlayışlardır. Termin ərəb dilindən tərcümədə “tək satmaq”, “təkəlçilik mənasını ifadə edir. İstehsalın təmərküzləşməsi, maliyyə kapitalının meydana gəlməsi inhisarçılığa yaranmasına gətirib çıxarır. Əlbəttə ki, burada elmi texniki tərəqqinin baş verməsinin də rolu olmuşdur.

Bazarın inhisarlaşması inhisarçıların öz aralarında kontrakt bağlamasına səbəb olur. Sövdələşmə aşağıdakı formalarda aparılır:

1) məhsulların həcminin müəyyən edilməsi haqqında

2) satış məkanlarının bölüşdürülməsi haqqında

3) əmtəə və xidmətlərin qiymətlərinin razılaşdırılması haqqında və.s

Təsərrüfat fəaliyyətində inhisarların mövcud olması istehsal prosesini ləngidən, əmək məhsuldarlığını zəiflədən amillərdən biridir. İstehsal sahəsinin bir əldə cəmləşməsi maliyyə kapitalının çevikliyinə mənfi təsir göstərərək məhsul keyfiyyətinin yüksəlməsinə mane olur. Bəzi hallarda bazar subyektləri bazarda yekdilliyini nəzərə alaraq alıcı cəlb etməyə maraqlı deyil. Səbəb isə tam aydındır. Çünki firma bazarda məhsulun yeganə satıcısı olduğu üçün istənilən halda istehlakçı həmin məhsulu alacaqdır. Nəticədə, əmtəə nə qədər keyfiyyətsiz olsa belə, firma eyni mənfəəti əldə edəcəkdir. İqtisadi araşdırmalar nəticəsində sübut olub ki, sahələrin inhisarlaşması müxtəlif formalarda baş verir. Təsərrüfat subyektlərində inhisarlar özünü 5 formada büruzə verir.

a) Karterlər- Eyni sahə üzrə bir qrup sahibkarın yaratdığı ittifaq və ya uyğun birlik formasıdır. Bu sövdələşmə bazarın inhisarlaşmasına yaradıcı amildir. Karterlər elə bir inhisar növüdür ki, burada fəaliyyət göstərən iştirakçılar kvota əsasında payalara sahib olurlar. Müəssisələr xammal mənbələrinin, bazarın bölüşdürülməsində, həmçinin effektiv satış planlarının qurulmasında, məhsulun qiymətinin müəyyən edilməsində, kadrların işə götürülməsində ortaq məxrəcə gəlirlər. Karterlər təkcə milli səviyyədə deyil, həmçinin beynəlxalq səviyyələrdədə fəaliyyət göstərirlər. Karterləşmə iqtisadiyyat üçün faydalı hesab olunmadığı üçün bazar mexanizmlərini əngəlləyir, ona görədə milli iqtisadiyyatında antiinhisar tənzimləmə mexanizminin təsirində qalırlar. Əksər ölkələrdə karterlərin qadağan olunmasına baxmayaraq, bəzi ölkələrdə bu fəaliyyət növü qanunla müdafiə olunur və məcburi qeydiyyata düşmək tələbi qoyulur. Bir çox hallarda dövlət onlardan tamamilə olaraq leqal şəkildə məhsul istehsalında bir alət kimi istifadə edir. XX-ci əsrin ortalarında Yaponiya hököməti elmi texniki tərəqqiyə keçid etmək üçün karterlərdən istifadə etmişdir. Almaniyada bu inhisarlaşma forması daha çox

yayılmışdır. Almaniyada banklar pul dövriyyəsini çoxaltmaq üçün artırmaq üçün kartellər şəkilində birləşərək öz güclərini artırırdılar.

b) Sindikatlar- Bu forma eyni sahələr üzrə müəssisələrin birliyini ifadə etdiyi üçün kartellərə bənzəyir. Lakin kartellərdən fərqli olaraq sindikatda istehsal prosesi ümumi orqan tərəfindən aparılır. Başqa sözlə, sindikatda iştirakçı müəssisələr satışdan əldə olunan gəlirlərə sahib ola bilmir, lakin istehsal və hüquqi müstəqilliyini özündə saxlayır. Bu inhisarlaşma növünün yaranması səhmdar cəmiyyətlərə oxşayır. Sindikat üzvlərinə təkcə firmalar deyil, başqa iri trestlər və konsernlər də daxil ola bilər. Belə ki, birliyə daxil olan iştirakçıların istehsal etdikləri məhsullar sindikatın sərəncamında olur. Keçən əsrin əvvəllərindən başlayaraq Almaniya, Fransa, Rusiyada geniş yayılmağa başlamışdır. XX-ci əsrin əvvəllərində Rusiyada sənayenin 45 sahəsində 140 inhisar birliyi fəaliyyət göstərirdi. İngiltərə və Almaniyada tütün məhsullarının 94 faizi üç firmanın əlində cəmləşib.

c) Trest- Bir və ya bir neçə sahənin müəssisələrinin yaratdığı birlik, ittifaqdır. Təşkilati-hüquqi forması səhmdar cəmiyyətlərə oxşardır. Trestin idarə orqanı birliyə üzv nümayəndələrin maliyyə və satış fəaliyyətlərinə nəzarəti edir, həmçinin yeni üzvlərin qəbul edilməsinə və ya hansısa üzvün xaric edilməsi haqqında son qərarı verir. Bu ittifaqa üzv olan hər bir iştirakçının təqdim etdiyi kapitalın payına uyğun olaraq əldə olunan qazancın müəyyən qisminə yiyələnmək hüququ var.

Trest özlüyündə 2 formada meydana çıxır:

1) Üfuqi trestləşmə

2) Şaquli trestləşmə

Eyni sahədə olan müəssisələr birliyi "üfüqi" trestləşmə yaradır, fərqli sahələr üzrə müəssisələr ittifaqı "şaquli" trestləşməni meydana gətirir.

d) Konsern- Elə bir ittifaq birliyidir ki, burada olan iştirakçılar fərqli sahələri təmsil edir və könüllü şəkildə birləşirlər. Üzvlərin maliyyə strukturuna yuxarı orqan nəzarət edir. Konserinin daxilində təkcə məhsul istehsal edən müəssisələr deyil, həmçinin banklar, nəqiliyyat və ticarət müəssisələr, digər idarələr olur. Belə nəticəyə gəlmək olar ki, konsernlər bank və sənaye kapitalının birləşməsindən

yaranır. Şaquli inteqrasiya prinsipləri əsasında yaradılan konsernlər ola bilər. Bir birilə bağlı olmayan konsernlərə Konqlomeratlar adlandırırlar.

e) Kombinatlar- Formasına görə trestlərin bir növü hesab olunur. Eyni bir sahənin trestləşməsi ( üfüqi trestləşmə) çox zaman şaquli trestləşmə ilə tamamlanır ki, bu zaman texnoloji proseslərlə bir- birinə bağlı olan istehsal sahələri də trestə aid olur ki, bu cür müəssisələr xarakterinə görə kombinatlar adlanır.

f) Konqlomerat- İstehsal və digər fəaliyyət bağlılığı olmayan əksər müəssisələrin böyük bir inhisarçılıq şəbəkəsi tərəfindən özdən asılı edilməsi özdən asılı edilməsi yolu ilə udulmasıdır. Konqlomeratlar ictimai holdinqlər sayılır.

g) Konsorsium- Müasir dövrdə iqtisadiyyatda ən geniş yayılmış inhisar formalarından biridir. Konsorsiumlar adətən böyük layihələrin həyata keçirilməsi üçün yaradılır. Bu inhisarçılıq formalarının üzvləri həm şəxsi mülkiyyətli müəssisələrin, həm də dövlət təşkilatları ola bilər (Vəliyev.T.S., Ə.P.Babayev., M.X. Meybullayev., 2011. s 231).

Bazar iqtisadiyyatının əhatəliyi baxımından inhisarçılıq aşağıdakı kimi qruplaşdırılır:

1) İstehsal inhisarçılığı

2) Təbii inhisarçılıq

3) Texnoloji inhisarçılıq

4) Təşkilati inhisarçılıq

6) İdarəetmə inhisarçılığı

7) İdxal inhisarçılığı

Yuxarıda sadaladığımız inhisarçılıq növləri istehsal prosesində meydana çıxır. Əmtəə və xidmət göstərən firmalar arasında rəqabət mövcud olmursa, bu zaman təbii inhisarçılıq baş verir. Bu inhisar növünə ən parlaq misal yaşayış məskənlərinin kommunal xidmətlər hesab edilən su, elektrik enerjisi, təbii qazla təmin edilməsini göstərə bilərik. Yaşayış binasını təbii qazla təmin etmək üçün müəssisə onun tərkibinə daxil olan bütün binaları birləşdirən boru kəməri şəbəkəsini tikməlidir. Əgər xidmətin göstərilməsində rəqabətdə olan bir neçə şirkət iştirak etsəydi bu halda onların hər birisi ayrılıqda öz işinin çəkilməsinə daimi

maliyyə xərcləməlidir. Yaşayış məntəqəsini zəruri qaz təmin etmək üçün xərclənən pulun məbləği o zaman minimal olur ki, bütün bu xidmətlərin hamısına nəzarəti bir şirkət etsin. Ancaq hazırki dövrdə elmi texniki tərəqqinin nəticəsidir ki, həmin sahədə bir şirkətin mövcudluğu ilə əlaqədar olan xərclərə qənaət etmək cəhdləri müəyyən düzəlişlərə səbəb olur.

Təbii inhisarçılığın digər növü kimi rəqabət yarışının iştirakçısı ola bilməyən və özünəməxsus xüsusiyyətlərə malik əmtəə və xidmətlər çıxış edə bilər. Misal olaraq biz magistral yolların üzərində yaradılan körpünü təcrübədən keçirək. Körpünün ayrıca xüsusiyyətləri var. Belə ki, ödənişli körpü üzərindən keçərkən həmin əraziyə baxan şəxs kimisə bu xidmətdən məhrum etmək səlahiyyətlərinə malikdir. Ancaq bu obyekt rəqabət obyekti sayılmır. Bu səbəbdən, oradan istifadə edən hər hansı bir avtomobil digər hərəkətdə olan avtomobilə maneçilik törətmir. Belə nəticəyə gəlmək olar ki, körpü təbii inhisar obyekti kimi çıxış edə bilər.

Texnoloji İnhisarçılıq- bu inhisarçılıq formasının obekti məhsul hazırlanmassı prosesində baş verir. Texnoloji inhisarçı istehsala elmi texniki tərəqqinin nailiyyətlərini tətbiq etməklə müəyyən istiqamətdə bazarda liderliyi ələ keçirmiş firmalar hesab olunur. Əlbəttə ki, iqtisadiyyatda bu cür inhisarçılıq müvəqqəti xarakter daşıyır.

Təşkilati inhisarçılıq dedikdə alıcı birliklərin yaratdığı forma başa düşülür. Məhsul alıcıları sahə, sahələrarası və ya regional təşkilat mərkəzlərini qurmaqla, inhisarçı istəklərinin miqyaslarını gözəçarpacaq dərəcədə yaymaq imkanları var. Yuxarıda qeyd edilən proseslər inhisarçılıq səviyyəsinin çoxalmasına, nəticədə ETT-nin sahə və ölkə daxilində geriləməsinə gətirib çıxarır.

İdarəetmə inhisarçılığı- İdarəetmə təkəlçiliyi inzibati əmirlik fəaliyyətlərinə oxşar xüsusiyyətlərdədir. İdarəetmə inhisarçılığının əsas iştirakçısı dövlətdir. Dövlət firmaların müstəqilliyini məhdudlaşdırmaq və məhsuliyyətlərini aşağı salmaq üçün sosialist təsərrüfat üsullarından istifadə edir.

İdxal inhisarçılığı - Müasir dövrdə ölkəmizdə geniş yayılmış inhisarçılıq formasıdır. Bəzən ölkə xaricindən idxal edilən bir çox malları fərqli şəxslər

tərəfindən sahiblənərək dəyərindən olduqca baha satır. Bu hal idxal inhisarçılığın yaradır (Vəliyev.T.S., Ə.P.Babayev., M.X. Meybullayev., 2011. s 233).

## 1.2. İnhisarçılıq və onunla mübarizənin dünya təcrübəsi

Antiinhisar qanunvericiliyini hüquqi tənzimlənməsini əks etdirilən qanunların ən məşhuru 1890-cı ildə ABŞ konqresi tərəfindən qəbul edilmiş "Şerman" qanunudur. Göstərilən qanunla bazarların gizli inhisarlaşması, satış sahəsində yekdilliyin əldə edilməsi, malların qiymətləri haqqında razılaşmalara qadağalar qoyulur. Şirkətin bazarların 60 faizinə sahiblik etməsi inhisarlaşma yaradır. Şerman qanunu ABŞ höküməti tərəfindən kartellərə və monopoliyalara qarşı mübarizə aparmaq üçün yaradılan və antiinhisar qanunvericiliyini əks etdirən hüquqi sənəddir. Qanunun Cinayət Məcəlləsində qeyd olunub ki, əgər hər hansı bir şəxs bir neçə ştatda fəaliyyət göstərərsə və ya ölkələrarası ticarəti insarlaşdırmağa cəhd edən hər bir şəxs və yaxud firma hüququ pozmuş sayılır, müvafiq maddələrə uyğun olaraq 50 min ABŞ dolları cərimələnir, hətta bir ilədək azadlıqdan məhrum edilə bilər.

1914-cü ildə Şerman qanunda olmayan bir neçə əlavə fəaliyyətlər təklif edilərək yeni bir akt- Kleyton qanunu qəbul edildi. Satış prosesinə təkliflər aşağıdakı kimi qruplaşdırılır:

1. Alıcıların qiymət ayrı-seçkiliyi
2. Şəxsi razılıq kontraktları
3. Sazişlərin imzalanmasında yoxlamalar
4. Ticarət əməliyyatlarında əhəmiyyətli bir hissəsinə sahiblənmə və.s

1936-cı ildə Robinson-Patman aktı Kleyton qanununa bəzi dəyişiklikər etdi. Qeyd edilən dəyişiklik, alıcıların eyni olaraq yerləşdirilmiş nümayəndələrə qarşı qiymət ayrı-seçkiliyinə daxil olan rəqabətə meyilli proqramları məhdudlaşdırmışdır. Bu qanuna növbəti dəyişiklik 1950-ci ildə aparılan "Seller Kefover" tərəfindən edildi. Qanunda nəzərdə tutulan qanunsuz uyğunlaşma ləğv olundu. Belə ki, düzəlişdən qabaq müəssisələrin horizontal üsulla uyğunlaşmasına razılıq var idisə, göstərilən düzəlişlə proses məhdudlaşdırıldı.

XX-ci əsrin son illərində Asiya qitəsində yaranan iqtisadi tənəzzül Yaponiyadan da yan keçməmişdir. Lakin iri inhisarçı müəssisələr yenədə öz bazar payını zəiflətmədilər.

Antiinhisar qanunvericiliyi sisteminin dünya təcrübəsi dedikdə məsələni daha da ölkələrin fərqli idarəetmə və tənzimləmə xüsusiyyətlərini nəzərə almaq lazımdır. Bu baxımdan fərqli ölkələrin tənzimləmə mexanizmlərinin öyrənib, növbəti illərdə Azərbaycanda tətbiq olunmasına nail olmaq olar.

Aydındır ki, ölkələr inhisarçılıqla mübarizəni öz idarəetmə sistemlərinə uyğun aparırlar. Antiinhisar siyasətinin dünya ölkələrində təhlil olunması üçün ilk olaraq ölkələri inkişaf etmə, idarəetmə xüsusiyyətlərinə görə qruplar üzrə aşağıdakı kimi təsnifləşdirmək lazımdır.

- Qüdrətli sənayesi olan inkişaf etmiş ölkələrin antiinhisar siyasəti;
- Avropa birliyi ölkələrində antiinhisar siyasəti;
- İqtisadiyyatı sistemində keçid yaşanan ölkələrdə inhisar tənzimləmə siyasətinin aparılmasının üsullarının tədqiqi;

Müasir bazar iqtisadiyyatlı ölkələrdə sosial-iqtisadi vəziyyətə zərər vuran inhisarçılıq fəaliyyətin məhdudlaşdırmaq üçün maliyyə kapitalının təmərküzləşməsinin və rəqabəti tənzimləmək üçün bir sıra tədbirlər həyata keçirilir. Antiinhisar qanunvericiliyinin hüquqi əsaslarının həyata keçirilməsinə müvafiq orqanların nəzarəti lazımdır. Məsələn, ABŞ-da eyni bir məhsul üzrə bazar payının 6%-nə sahib olmaq inhisarçılıq hesab olunur. İnhisarçılığın müəyyənləşdirilməsi qaydası hər bir ölkənin iqtisadi vəziyyətindən və bazar strukturundan asılıdır. Ölkələr bu problemlə mübarizə aparmaq üçün loyal və bəzən radikal mövqelərdən çıxış edirlər. Təkəlçilik ETT-nin inkişafına ciddi zərbə vurduğu üçün iqtisadi dayanıqlılığa mənfi təsir etməklə, bazarın sərbəst şəkildə özünü tənzimləməsinə maneçilik törədir. Əmtəə və xidmətin keyfiyyətindən asılı olmayaraq, əsassız cəhdlərlə qiymətin normadan artıq yüksəldilməsi bazarın tələb və təklif qanunları ilə hərəkətinə zərbə vurur, belə halların müşahidə olunması istehlakçıların məhsul seçmək hüquqlarını pozur.

İnhisar qiyməti tətbiq dairəsinə görə 2 səviyyə bölünür: Yüksək səviyyə (buna satıcı inhisarı); aşağı səviyyə (buna alıcı inhisarı- monopsoniya deyilir). Hər iki halda seçim imkanı ifrat dərəcədə məhdudlaşır. İnhisar qiyməti funksional olaraq qeyri iqtisadi amillərə əsaslanmaqla məhsulun təsərrüfat subyektləri arasında yenidən bölgüsünü həyata keçirir. O eyni zamanda iri istehsalın iqtisadi üstünlüklərini əks etdirməklə izafi inhisar məhsulu əldə etmək imkanı yaradır. Qeyd edilən halların baş verməməsi üçün dövlət tərəfindən bazara xüsusi qanunlarla nəzarət edilir. Satış praktikasında antiinhisar qanunvericiliyinin 2 əsas forması var:

1. Məhdudlaşdırıcı
2. Tənzimləyici

Məhdudlaşdırıcı tədbirlər inhisarçı şirkətlərin fəaliyyətinə ciddi çəkildə zərbə vurur, rəqabət mübarizəsinə gəlməyən müəssisəni bazardan vurub çıxarır. Bu mexanizmə əsasən Yaponiyanın və ABŞ-in antiinhisar qanunvericiliyincə daha çox rast gəlinir.

Tənzimləyici sistem isə biraz loyallıq ifadə edir. Yəni inhisarın olmasına mane olmur, lakin müəyyən mənfi satış taktikaları aşkarlandığı zaman tənzimləmə sistemi işə düşür. Bu mexanizm adətən Avropa, daha dəqiq desək Şərqi və cənub Şərqi Avropa ölkələrinin qanunvericiliyində əks olunub. Tənzimlənmə tədbirlərinin inhisarçılıqda sui-istifadə edilməsi zamanında tətbiqi zəruridir.

# II FƏSİL. QLOBALLAŞMA ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA SİYASƏTİNİN TƏŞKİLATİ-HÜQUQİ FORMALARI

## 2.1. Antiinhisar siyasətinin normativ-hüquqi əsaslarının qiymətləndirilməsi, qiymətə nəzarət mexanizmləri

Antiinhisar siyasətinin aparılmasında müxtəlif metodlardan istifadə olunur. Bu metodlar əsasən qanunvericiliyin tələblərini pozan subyektlərin fəaliyyətinə tətbiq edilməklə, inzibati tənzimləmə xarakteri daşıyır. İnhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması, eyni zamanda bazarda inhisar yaradan məhsulların qiymətinə nəzarət mexanizmləri hələ XIX əsrin ortalarında ABŞ-da tətbiq olunmuşdur. Daha sonra Avropa və bir sıra ölkələrdə, eləcə də, Azərbaycanda bu fəaliyyəti tənzimləyən qanunlar qəbul edilmişdir. Artıq XX-ci əsrin son illərində dünyanın 40-dan çox ölkəsi antiinhisar qanunvericiliyini qəbul etmişdir.

Azərbaycan Respublikasında antiinhisar siyasətinin aparılması, inhisarçı müəssisələrin məhsul üzərində haqsız qiymət təyin etməsinin qarşısının alınması, istehlakçı hüquqlarının mühafizəsinin təmin olunması ölkə iqtisadiyyatının prioritet vəzifələrindəndir.  Dövlətin inhisarçılığa qarşı həyata keçirdiyi tədbirlər səmərəli iqtisadiyatın formalaşdırılmasına, sağlam maliyyə mühitinin yaradılmasına yönəldilir. Lakin iqtisadiyyatda rəqabəti qorumaq üçün təkcə dövlət deyil, həmçinin sahibkarlar və istehlakçılar da birgə çalışmalıdır.

Aydındır ki, bazar münasibətlərində mənfəət niyyəti ilə bazara məhsul çıxaran şirkət  müxtəlif vasitələrlə rəqiblərindən daha çox gəlir götürmək istəyəcək. Belə olduqda, inhisara şərait yaradan hallar baş verməsi qaçılmazdır. Bunun qarşının alınması üçün istehlakçılar mal alarkən hüquq və vəzifələrini bilməli və tələb etməlidir. Azərbaycanda ilk dəfə olaraq dövlət tərəfindən antiinhisar tədbirlərinin həyata keçirilməsinə “ Azərbaycan Respublikasının Antiinhisar siyasəti və Sahibkarlığa Kömək Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992 il tarixli Fərmanından sonra başlanıldı. Komitənin vəzifəsi antiinhisar qanunvericiliyinə  əməl olunmasına dövlət nəzarətini təmin etmək idi. Sonralar Azərbaycan Respublikası İqtisadi

İnkişaf Nazirliyinin tabeliyinə keçərək dəfələrlə hüquqi status və daxili strukturu yenilənərək nazirliyin tərkibində olan quruma çevrildi. Antiinhisar fəaliyyətinə dövlət nəzarətini təmin etmək üçün komitə 1993-cü il 4 mart tarixində " Antiinhisar fəaliyyəti haqqında" Qanunu qəbul etdi. Növbəti illərdə qanuna bir neçə dəyişiklər aparıldı.

"Antiinhisar fəaliyyətin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu inhisarçılığa şərait yaradan amillərin qarşısının alınmasının, əmtəə və xidmətlər bazarında təkəlçiliyin məhdudlaşdırılmasının, daxili və xarici investisiyaların effektivliyinə mane ola biləcək halların qarşısının alınmasının təşkilati-hüquqi normativlərini müəyyən edir. Monopolist fəaliyyətin tənzimlənməsi təkcə bu qanunlarla deyil, həmçinin digər hüquqi aktlarla həyata keçirilir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra fərdi təsərrüfatçılıq fəaliyyətinin başlaması ilə antiinhisar siyasəti və qanunvericiliyi formalaşması zəruriyyəti yaranmışdır.

"Antiinhisar fəaliyyətin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu "Ümumi müddəalar", "İnhisarçılıq fəaliyyəti", "Antiinhisar tənzimləmə vasitələri", "Yekun müddəalar" olmaqla 4 bölmə və 19 maddədən ibarətdir. Qanunun birinci bölməsi qanunun məqsədlərini, antiinhisar qanunvericiliyini, qanun tətbiq dairəsini, antiinhisar siyasətini həyata keçirən Azərbaycan Respublikasının dövlət orqanlarını, əsas anlayışlarını əhatə edir. İkinci bölmə müvafiq olaraq- dövlət inhisarçılığı, sahə inhisarçılığı, yerli inhisarçılıq, təsərrüfat subyektlərinin inhisarçılığı, maliyyə-kredit inhisarçılığı, bazar subyektlərinin üfüqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq, təbii inhisarçılıq, təbii inhisarçılıq, patent-lisenziya inhisarçılığı, yerin təkindən istifadə inhisarçılığından bəhs edir. Üçüncü bölmə antiinhisar fəaliyyətə dövlət nəzarəti mexanizmlərindən, konrekt olaraq- təsərrüfat subyektlərinin və onların birliklərinin yaradılması, yenidən təşkili və ləğv edilməsi zamanı antiinhisar qanunvericiliyinə riayət edilməsinə dövlət nəzarəti, səhmlərin (payların) əldə olunması zamanı təsərrüfat subyektləri arasında bağlanılmış əqdlərin həyata keçirilməsində antiinhisar qanunvericiliyinə riayət edilməsinə dövlət nəzarəti, inhisarçılıq

fəaliyyətinin məhdudlaşdırılması, inhisarçılıq fəaliyyətinin aradan qaldırılması, müvafiq icra hakimiyyəti orqanının məlumat əldə etmək hüququnu müəyyən edir. Sonuncu, yəni dördüncü bölmə isə qanunun pozulması nəticələrindən, bu hallar baş verdiyi zaman təsərrüfat subyektlərinin, onların rəhbərlərinin və müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin məhsuliyyətini müəyyən edir.

Qanun qəbul olunduğu ilk vaxtlar ictimai inkişafa kömək edən hüquqi akt hesab edilirdi. Təzəcə müstəqillik qazanmış, iqtisadiyyatı tam formalaşmamış dövlət üçün bu sahədə olan boşluğu aradan qaldırmaq, sahibkarlıq fəaliyyətinə əlverişli mühit yaratmaq zəruri hesab edilirdi. Ancaq qeyd etmək lazımdır ki, bu hüquqi akt mükəmməl sayıla bilməzdi. İqtisadiyyatın genişlənməsi, yeni təlabatların yaranması beynəlxalq iqtisadiyyata doğru yüksəlişlər qanunda olan boşluqları və çatışmazlıqları açıq şəkildə göstərirdi. İllər keçdikcə qanuna bir neçə əlavə və dəyşikliklər edildi. Azərbaycan Respublikası "Antiinhisar fəaliyyəti haqqında" Qanununda qeyd olunur ki, 1müəssisənin bazar payı 33%-dən, 3 müəssisənin 50%-dən, 5 müəssisənin 66,6%-dən çox olarsa bu zaman inhisarçı müəssisə hesab olunur.

Rəqabətin qorunması, inhisar fəaliyyətini məhdudlaşdırılması aşağıdakı normativ-hüquqi aktlarda öz əksini tapmışdır:

1. Azərbaycan Respublikasının Konstitusiyası;
2. Antiinhisar fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları;
4. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;
5. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının Qanunu;
6. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu;
7. "İstehlakçıların hüquqlarının mühafizəsi haqqında" Qanun
8. "Tənzimlənən qiymətlər haqqında Azərbaycan Respublikasının Qanunu;
9. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu;
10. Digər normativ-hüquqi aktlar;

Yuxarıda qeyd olunan hüquqi aktlar bazarda hökmran mövqe tutan təsərrüfat subyektlərinə qarşı mübarizənin qanunverciliyə uyğun aparılmasının normativlərini göstərir. İnhisarçılığı yaradan bir sıra dolayı səbəblər vardır ki, belə hallar nəticəsində müəssisənin bazarda reytinqi artmış olur. Bu səbəblərə dövlət lisenziyası, mənbələrə sahiblik, müəllif hüquqları və patent və yüksək başlanğıc dəyəri kimi amillər müəssisəni malların vahid satıcısı halına gətirir. İnhisar bazarında satıcı heç bir rəqabətlə üzləşmir, çünki o, yaxın əvəzedicisi olmayan malların yeganə satıcısıdır. Monopoliyalar digər satıcılara məlum olmayan bəzi məlumatlara sahibdirlər. Adıçəkilən qeyri-qanuni fəndlərlə digər satıcıların bazara girişi məhdudlaşır. Qeyd olunan halların qarşısının alınması üçün müxtəlif dövlət orqanları birgə fəaliyyət göstərməlidir. Dövlətin tərəfindən bu rejimin qarşısının alınmasında 3 istiqamətdə tənzimləmə mexanizmindən istifadə edir: Hüquqi tənzimləmə, İqtisadi tənzimləmə, inzibati tənzimləmə (Sxem:2).

**Sxem 2: Antiinhisar fəaliyyətin tənzimləməsi metodları**




**Mənbə:** i.e.d.,prof. Əvəz Bayramovun İnhisarizm kitabının məlumatlarından istifadə edərək müəllif tərəfindən hazırlanmışdır.

İnhisarçı müəssisələr iqtisadi proseslərin gedişatına birbaşa və yaxud dolayı üsullarla mənfi təsir göstərir. Nəticədə bazarın tələbi ilə təklifi arasında qarşılıqlı bağlılıq pozulur. Belə olan halda, bazarda rəqabət nəticəsində qiymət yarana bilmir, məhsulun yeganə istehsalçısı olan müəssisə qiyməti özü təyin edir. Əvəzedicisi olmayan əmtəə və xidməti təklif edən müəssisənin məhsula qoyduğu qiymət əksər hallarda yüksək olur. Çünki müəssisə sahibi fikirləşir ki, bazar öz əlindədir və alıcılar məcbur qalıb məhsulu alacaqdır. Müəssisənin fəaliyyəti haqsız

satışa olan meyilləri sosial gərginliyə də gətirib çıxara bilər. Sosial gərginlik dedikdə əhali narazılıqları başa düşülür.

Opitmal rəqabət mühitinin yaradılması, təkəlçiliklə mübarizə üçün daha bir hüquqi normativ qanunlar vardır. Haqsız rəqabətin qarşısının alınmasının və monopolist mövqeyə əks təsir göstərən, təşkilati hüquqi əsaslarını müəyyənləşdirən "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanununda bu kimi halların normativ əsasları qeyd edilmişdir. Qanun 3 fəsil, 15 maddədən ibarətdir. Birinci fəsil "Ümumi müddəalar", ikinci fəsil "Haqsız rəqabət", üçüncü fəsil isə bu qanun pozulması nəticəsində yaranan məhsuliyyətlərdən bəhs edir (Haqsız rəqabət haqqında Azərbaycan Respublikasının Qanunu., 1995).

Bu hüquqi sənəddə aşağıdakı mövzulara toxunulmuşdur:

a) Sahibkarlıq fəaliyyətinin liberal üsullarla aparılmasına hüquqi dəstək yaratmaq;
b) Bazar iştirakçılarının haqsız rəqabət üsullarından istifadəyə görə məhsuliyyətini aşılamaq;
c) Rəqabət mübarizəsində əsassız üstünlük əldə etmək dövlət orqanlarında çalışan şəxsləri, siyasi partiyalarda rəhbər vəzifə tutan şəxsləri, kütləvi informasiya vasitələrinin işçilərini, bazar subyektlərinin rəhbərlərini bir sıra vasitələrlə öz tərəfinə çəkmək üçün nəzərdə tutan maddi və qeyri maddi ödənişləri təqdim etməyə görə hüquqi məhsuliyyətini göstərir;
d) Bu qanunun icrasına nəzarət edən orqanlar qeyd olunub;

Bir müəssisənin rəqiblərinə qarşı qeyri peşəkar üsullarla müdaxilənin aşağıdakı formaları vardır:

1. Rəqibin istehsal fəaliyyətinin nüfuzdan salınması;
2. Rəqibin istehsal satış fəaliyyətinin təqlidi;
3. Təsərrüfat fəaliyyətinə müdaxilələr;
4. Haqsız sahibkarlıq fəaliyyəti;
5. Haqsız işgüzarlıq fəaliyyəti;
6. İstehlakçıların çaşdırılması

Təbii inhisarların dövlət tərəfindən tənzimlənməsi istehlakçılar çox mühüm və əlverişli amildir. Tənzimləmə dedikdə qadağanedici tədbirlər nəzərdə tutula

bilməz. Elə tənzimləmə həyata keçirilməlidir ki, inhisarçı müəssisə məmnun qalsın və keyfiyyətli məhsul istehsalına və ya göstərilən xidmətlərə stimulverici təsir göstərsin.

Antiinhisar fəaliyyətin qarşısının alınmasına, səmərəli rəqabət üsullarının tətbiq olunması daha bir qanun layihəsi qəbul edilmişdir. "Təbii inhisarlar haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunlarının tələblərinə uyğun hazırlanan normatik hüquqi aktlardan biri də "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunvericiliyidir. Qanun qiymətlərin tənzimləməsində dövlətin rolundan və onun təşkilati hüquqi, iqtisadi əsaslarından, tətbiq dairəsindən, müvafiq icra hakimiyyəti orqanlarının vəzifə və hüquqlarından bəhs edərək 10 maddəni özündə əks etdirir. "Tənzimlənən qiymətlər haqqında" Qanununda qiymətlərin tənzimlənməsinin bir neçə prinsipləri qeyd edilmişdir:

a) İqtisadi və sosial böhranların yaranmasının qarşısının alınması, inflyasiyaya qarşı mübarizə aparmaq;
b) İqtisadi inkişafa zəruri sahələrə investiya qoyuluşununa dəstək vermək;
c) İqtisadiyyatın dinamik inkişafının təmin edilməsi üçün tənzimlənən bazar münasibətlərini yaratmaq;
d) Məhsulun idxal və ixrac qiymətlərinə nəzarətin artırmaq, daxili və xarici bazarın təhlilin aparmaq
e) İqtisadi səmərəliliyi artırmaq üçün ölkənin təbii ehtiyatlarının bazar qiymətinin qiymətləndirmək;
f) Antiinhisar siyasətinin aparılması, istehsalçıların və istehlakçılarının maraqlarının təmin edilməsi.
g) Qiymətləri tənzimlənən əmtəə və xidmətləri istehsal edən müəssisələrə əlverişli texniki və texnoloji şəratin yaradılması;

Bazar münasibətlərində yüksək qiymətlərə dövlət nəzarətinin artırılmasında dövlətin əsas vəzifələri aşğıda kimidir:

- Məhsul qiymətinin tənzimlənməsində dövlət siyasətinin müəyyənləşdirilməsi və tətbiqinin təşkili;

- Yerli istehsal sahələrinin intensiv inkişafına dəstək vermək və daxili bazarı qorumaq
- Müəssisələrin və təşkilatların yüksək mənfəət əldə etməsi üçün yüksək qiymət təyin etməsinin qarşısının alınması;
- Qiymətlərin tənzimləməsinə səlahiyyətli orqanla bazar subyekti arasında yaranan mübahisəli məsələlərin həll edilməsi məsələsinə baxmaq və yekun qərar qəbul etmək;
- Ölkədaxili ehtiyaclarının ödənilməsi üçün büdcə vəsaitlərindən əlverişli və məqsədyönlü istifadəni təmin etmək

Bildiyimiz kimi, bazarda əsassız qiymət artımı satış effektivliyini azaldar, keyfiyyətin aşağı düşməsi ilə nəticələnə bilər. Bu kimi amillərin qarşısının alınması üçün qanunda bir sıra tənzimləmə üsulları qeyd olunmuşdur:

a) Vergi, gömrük tarifi və rüsumların azaldılması ilə
b) Sahibkarlara subsidiya verməklə
c) İmtiyazlı kreditlər verməklə
d) Tənzimlənən qiymətlərin tətbiq olunduğu məhsulun qiymətlərini müxtəlif alıcı qrupları üzrə qiymətləndirmək
e) Qiymətdə rentabellilik əmsalını məhdudlaşdırmaq və.s

Əgər qiymətləri tənzimləyən səlahiyyətli orqanla məhsul istehsal edən müəssisə arasında mübahisələrə qanunvericiliyə uyğun olaraq məhkəmələrdə baxılır. Tənzimlənən qiymətlər haqqında qanunda qeyd olunub ki, bazar qiyməti tələb və təklif əsasında müəyyən olunur. Əgər bazarda subyektlərin inhisarçılığı yaranarsa bazar qiyməti yaranmır. Hüquqi dövlətdə qanun həm də ictimai münasibətlərin tənzimləyicidir. P. Samuelson və V.Nordxaus qeyd edirlər ki, dövlətin 3 əsas funksiyası var: səmərəlilik, ədalətlilik və sabitlik. Dövlətin səmərəlilik funksiyasını əsaslandıran iqtisadçı bazarın inhisarı kimi olduğunu yazır. Çünki o bazarın "səhvini" düzəldir. Dövlətin ədalətlilik funksiyası isə qiymətin varlılar və aztəminatlı ailələr arasında uyğunlaşdırılmasını tənzimləyir. Dövlətin sabitlik funksiyası bazarın risklərə olan davamlılığının tənzimlənməsi rolunu oynayır. Risklər dedikdə işgüzar tsiklinin qalxıb enməsi, işsizliyin və inflyasiyanın

səviyyəsi başa düşülür. Bəzən dövlətin iqtisadiyyata müdaxiləsi iqtisadi rəqabəti gücləndirmək əvəzinə daha da zəiflədir. Məsələn: məhsul istehsalına bir çox lisenziyaların verilməsi, vergilər, ixrac əməliyyatlarını məhdudlaşdıran kvotalar, işçilərin əmək haqqlarına lisenziyalar və.s antiinhisar fəaliyyətə zidd olur. Heç şübhəsiz ki, məhdudiyyətlər əlverişli deyil və yalnız azsaylı insanların arzusu ilə qəbul edilə bilər. Digər kateqoriyalardan olan insanlar üçün səmərəli deyildir. Dövlətin rəqabətli satışa dəstək verən qanun və layihələri ardıcıl olaraq icra olunmalı, bu sahədə beynəlxalq təcrübələr dərindən öyrənilməlidir. XVIII-XIX əsrin məşhur Alman iqtisadçısı İmmanuel Kant hesab edir ki, "İqtisadiyyat ədalətli yox səmərəli olmalıdır. Bunun üçün də dövlətin güclü hüquqi təminatı lazımdır. Səmərəli satışa zərbə vuran, məhsul keyfiyyətini aşağı salan inhisarçılıq keçən əsrdən başlayaraq fenomen mövzu olaraq öyrənilir. Dünyaya inteqrasiya şəraitində səmərəli iqtisadiyyat formalaşdırmağı özünə əsas strategiya seçən Azərbaycanda antiinhisar siyasətinin prioritetlərinin müəyyənləşdirilməsi qarşıya qoyulmuş hədəflərə uğurla çatmağa stimul verir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanının 3.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə "Təbii inhisarlar haqqında " və "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikası qanunlarının tələblərinə uyğun hazırlanmış "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"nın təsdiq edilməsi bazar subyektlərinin özbaşına yürütdüyü qiymət siyasətinə dövlət nəzarətinin təmin edilməsi məsələlərini tənzimləyir. Qloballaşan iqtisadiyyatda qarşıya çıxan əsas proseslərdən biri məhz bazar iştirakçısının öz iqtisadi gücündən istifadə etməklə rəqabəti məhdudlaşdırmaq cəhdidir. Dövlət tərəfindən bu cür fəaliyyətlərin qarşısının alınması, səmərəli bazarın münasibətlərinin yaradılması, sahələrarası əlaqələrin optimallaşdırılması, azad rəqabətin formalaşdırılması, innovativ inkişafı sürətləndirmək üçün tənzimləmə tədbirləri görülür.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev ölkəmizdə geniş vüsət alan islahatlardan, yeni sistem quruculuğundan bəhs edərkən bu problemin iqtisadiyyatımız üçün mənfi təsirlər törətdiyini, vergidən yayınma hallarının

hüquqi, cinayət məhsuliyyəti yaratdığını hər zaman vurğulayır və həmin şəxslərə xəbədarlıq edir. Dövlət başçısının 15 oktyabr 2019-cu ildə keçirdiyi iqtisadi müşavirədə bildirib ki, bir çox  müəssisələr və digər kommersiya fəaliyyəti ilə məşğul olan təsərrüfat subyektləri vergiləri tam ödəmir, işçilərə qeyri rəsimi maaşlar verir. Prezident İlham Əliyev vurğulayıb ki, araşdırmalar hərgün aparılır, qara mühasibatlıq aşkar edilir və qanunvericilik əsasında cəzalandırılır: Sahibkarlar başa düşməlidir ki, vergiləri və rüsumları ödəmək onların vəzifə borclarıdır. Bizim sosial və infrasturuktur layihələrimizin həyata keçirilməsinin maddi dəstəyi büdcəyə toplanan pullardır. Bu pullarında böyük bir qismi vergilərdən və gömrük rüsumlarından yığılır. Ona görə də vergilər və rüsumlar birmənalı şəkildə ödənməlidir. Siz sahibkarlardan, qeyri rəsmi ödənişlər onlardan tələb oluna bilməz. Əgər belə hallarla rastlaşırsızsa, bizə məlumat verin. Dövlətin və hökumətin məqsədi xalqın rifah halının yaxşılaşdırılmasına yönəldilib. Hər il fərdi təsərrüfat subyektlərinin inkişaf etdirilməsi ilə bağlı çağırışlarım olur.  Dövlət başçısı qeyd edib ki, hazırda ölkə iqtisadiyyatının 85 faizi özəl sektorda formalaşıb. İstisna deyil ki, məmurların bir çoxu hansısa biznes dairələrinə dəstək olur, onların tələb və təklif əsasında fəaliyyət göstərməsini əngəl yaradırlar. Lakin biznes sahibləri bilməlidir ki, ölkəmiz vahid qanun və qaydalarla fəaliyyət göstərir. Həmçinin, Prezident İlham Əliyev bildirib ki, büdcəmizin  neft-qaz gəlirlərindən asılılığı azaldılmalı, qeyri neft sektoru daima inkişaf etdirilməlidir.

Antiinhisar qanunvericiliyinin müddəalarında qeyd olunur ki, inhisarlıq fəaliyyəti ilə mübarizə aparan orqan və ya vəzifəli şəxslər bir çox sahələrdə və bazarlarda yoxlamalar apara, tərəflər arasında qanunsuz sövdələşmə və ya müqavilələrin bağlanmasına qadağa qoya bilər.  Dövlətin iqtisadiyyatı tənzimləmə metodları bəzən birbaşa tənzimləmə aləti kimi çıxış edir. Beynəlxalq təcrübədə antiinhisar fəaliyyətin tənzimlənməsinin 2 üsulu vardır

1. Qadağanedici
2. Tənzimləyici

Qadağanedici sistem inhisar fəaliyyətinə radikal təsir göstərir. Bu üsuldan ABŞ və Yaponiyada ölkələr daha çox istifadə edirlər. Tənzimləyici sistem isə bir qədər

mülayim davranışları özündə ehtiva edir. İnhisarı qarşı çıxmır, inhisar fəaliyyət aşkarlandığı zaman tənzimləyici  tədbirlər həyata keçirilir. Tənzimləyici sistem daha çox Avropa Birliyi ölkələrinin iqtisadiyyatında tətbiq olunur.

Dövlətin iqtisadiyyatı idarəetmə vasitələri fərdi və kompleks şəkildə həll olunur. Proqramlar məqsədli, dövlət büdcəsi hesabına, kompleks olaraq qruplaşdırılır.  Dövlət büdcəsi ilə iqtisadiyyata təsir gücləri də 3 yerə bölünür: respublika büdcəsi, indiqativ planlar və bələdiyyə büdcəsi. Dövlətin iqtisadiyyatı sxem üzrə göstərilən vasitələrlə idarəetməsi nəticəsində səmərəli rəqabət mühiti yaradır, iqtisadi artım təmin edilir (Sxem:3).

**Sxem 3: Dövlətin iqtisadiyyatı idarəetmə və təsir vasitələr**




**Mənbə:** i.e.d.,prof. Əvəz Bayramovun İnhisarizm kitabının məlumatlarından istifadə edərək müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanda fəaliyyət göstərən bir neçə inhisarçı şirkətlər var ki, onların bazar payı çoxdur. İstehsal etdikləri məhsulda digər rəqiblərini üstələmək üçün il

ərzində böyük miqdarda vəsait xərcləyir. Belə şirkətlər arasında ölkəmizdə çoxsaylı abunəçisi olan mobil operator Azercell-i misal göstərmək olar. Ölkə əhalisinin yarı faizinə sahiblik edən bu şirkət bazarda öncüllük yarada bilmişdir. Azərbaycanın lider mobil operaturu sayılan Azercell şirkəti 1996-cı ilin yanvarında təsis edilib və ölkənin telekommunikasiya sektorunun 49 faizinə sahiblik edir. Abunəçi sayı 4,8 milyondan çoxdur. Statistikalara əsaslanaraq qeyd edirik ki, Azercell şirkəti qeyri neft sektorunun ən iri vergi ödəyicisidir. Hər zaman ilklərə imza atan bu şirkət dünya kommunikasiya sektorunda öncədən ödəmə sistemini tətbiq edib. Telekommunikasiya baxımından inhisarçılıq göstəricilərinə nəzər salsaq, aydın olur ki, Azercell inhisarçı özəl müəssisədir. Çünki bazar payı 49 faizdən çoxdur. Şirkət Azərbaycanda telekommunikasiya vasitələrinin tətbiqi və sosial rifahın yaxşılaşdırılması üçün 1 milyard dollar sərmayə qoymuşdur. Çevik şirkət olaraq ölkəyə bir sıra yenilikləri məhz Azercell gətirmişdir. Bu yeniliklər aşağıdakılardır (https://www.azercell.com/az/company/ , 2020) :

- GSM texnologiyası;
- öncədən ödəmə sistemi;
- 24/7 Telefon Mərkəzi (*1111) ;
- Azərcell Ekspres ofisləri;
- mobil və onlayn müştəri xidmətləri;
- mobil elektron imza xidməti “Asan İmza”;
- mobil internet xidmətləri;
- 7/7 Ön Masa xidmətləri;
- Azərcell Ekspress ofisləri;
- sosial media üzərindən müştəri xidmətləri;

Şirkətin təklif etdiyi məhsullar sosial əhəmiyyətliliyinə görə seçilir. GSM texnologiyası, 24/7 Telefon Mərkəzi, Azərcell Ekspres ofisləri, mobil və onlayn müştəri xidmətləri, mobil internet xidmətləri, mobil elektron imza xidməti “Asan İmza”, 7/7 Ön Masa xidmətləri, Azərcell Ekspress ofisləri, sosial media üzərindən müştəri xidmətləri vətəndaş məmnunluğunu və rahatlığını daha əlçatan edir.

İllər üzrə maliyyə göstəricilərinə nəzər yetirsək, önəmli inkişafın şahidi olarıq:

**Cədvəl 1: Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 31 dekabr 2018-ci il tarixinə, min Azərbaycan manatı ilə**

| **Uzunmüddətli aktivlər** | **2018** | **2017** |
|---|---|---|
| Əmlak, qurğu və avadanlıqlar | 354,419 | 342,627 |
| Qeyri-maddi aktivlər | 85,539 | 93,718 |
| Uzunmüddətli aktivlər üçün qabaqcadan ödənişlər | 16,631 | 3,865 |
| Müqavilənin imzalanması ilə bağlı xərclər | 4,279 | - |
| **Cəmi uzunmüddətli aktivlər** | **460,868** | **440,210** |

**Mənbə:** 2018-ci ilin maliyyə hesabatları, https://www.azercell.com/media/html/files/AZERCELL%20TELECOM%20LLC%202018%20summary%20FS_AZE(2).pdf

**Cədvəl 2: Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 31 dekabr 2018-ci il tarixinə, min Azərbaycan manatı ilə**

| **Qısamüddətli aktivlər** | **2018** | **2017** |
|---|---|---|
| Mal-material ehtiyatları | 2,852 | 5,158 |
| Müqavilənin İmzalanması ilə bağlı xərclər | 4,812 | - |
| Əvvəlcədən ödənilmiş vergilər | 38,323 | 73,823 |
| Ticarət və digər debitor borclar | 55,744 | 47,161 |
| Qısamüddətli investisiyalar | 297,500 | 156,409 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalenti | 170,211 | 193,591 |
| Məhdudiyyət qoyulmuş su vəsaitləri | 1,543 | - |
| **Cəmi qısamüddətli aktivlər** | 571,015 | 476,142 |

**Mənbə:** 2018-ci ilin maliyyə hesabatları, https://www.azercell.com/media/html/files/AZERCELL%20TELECOM%20LLC%202018%20summary%20FS_AZE(2).pdf

Şirkətin 2018 il üçün cəmi maliyyə aktivləri 1 milyon 31 min 883 manat hesablanıb. Azercellin cari il üçün gəlirləri 421min 193 manat olmuşdur. Azərcell artıq rəqəmsal gündəlik proseslərində yenilikçi ruh aşılayan, uğurlu dəyişkənliyə nail olan bir şirkətdir. 2018-ci il üçün statistikalara əsaslanaraq bir il ərzində aktivləri 916 min manatdan, 1 milyon 31 min manata yüksəltmişdir. Uzunmüddətli aktivləri 20 min manat, qısamüddətli aktivləri isə 95 min manat artmışdır. Əməliyyatlardan əldə olunan pul vəsaitləri 230 min manat, əməliyyat

fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri isə 225 min manatdır. Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis azalma 23, 289 min manat olmuşdur. İnvestisiya fəaliyyətində istfadə edilən xalis pul vəsaitləri 247,5 min manat, maliyyələşdirmə fəaliyyətində istfadə edilən xalis pul vəsaitləri isə 411 min manata çatmışdır.

Ən çox istifadə edilən, məşhur xidmətləri aşağıdakılardır:

- SMS paketləri;
- PayCell;
- SimKredit;
- Online ödəmə
- zənglərin idarəedilməsi və.s

Bundan əlavə radio siqnalların şəbəkə keyfiyyətini ölçən və simsiz rabitənin əhatə dairəsi üzrə ixtisaslaşan beynəlxalq sistemlər tərəfindən aparılmış araşdırmaların nəticələrinə əsasən, Azercell-in 4G şəbəkəsi Azərbaycanın mobil operatorları arasında ən yüksək göstəricilər nümayiş etdirmişdir. Azercell Telekom MMC ISO 10002:2014 ,ISO 9001:2015, ISO 14001, IIP (Investors In People) - İnsanlara Sərmayədar (İS), OHSAS 18001 və EN15838 (müştərilərlə əlaqələrin yüksək səviyyəsinə zəmanət) beynəlxalq standartlarını qazanmışdır. Şirkətin illik gəliri 421 min manatdan, cəmi xərc və məsrəflərin dəyəri isə 286 min manat olmuşdur (https://www.azercell.com/az/company/, 2020 ).

### 2.2. Təbii inhisar subyektlərində dövlət tənzimlənməsinin müasir vəziyyəti

Təqdim olunan dissertasiya işinin aktuallığı, ölkə iqtisadiyyatında inhisarçılığın qarşısının alınmasını və haqsız rəqabətlə mübarizənin gücləndirilməsini, rəqabətqabiliyyətli bazar münasibətlərini formalaşdırılmasına şərait yaradılması imkanlarının qiymətləndirilməsini şərtləndirir. Azərbaycanda dövlət tərəfindən antiinhisar siyasəti uğurla icra olunmaqdadır. Lakin bu o demək deyil ki, ölkəmizdə inhisarçı müəssisələr yoxdur. Hər bir ölkə milli təhlükəsizliyinin təminatı, sosial-iqtisadi inkişafda oynadıqları roluna görə, həm də vətəndaş maraqlarının qorunması məqsədi ilə dövlət inhisarlarına və ya təbii inhisara himayədarlıq edir. Rəqabət mühitinin məqsədəuyğun olmadığı sahələr var ki, bu sahələrə nəzarət dövlətin ixtiyarındadır. Təbii inhisarlar kommersiya istiqamətində fəaliyyət göstərməklə yanaşı, xüsusi hallarda dövlət bu cür qurumlara pullar da ayırır.

Dövlət tərəfindən təbii inhisarçılığa dəstək verilir. Məsələn: Azərbaycan Respublikasının və xalqının qiymətli xəzinəsi olan neft-qaz məhsullarının çıxarılması və yeni yataqların kəşfi ilə məşğul olan Dövlət Neft Şirkəti, Kommunal xidmətlər təklif edən “Azərsu” Açıq Səhmdar Cəmiyyəti, “Azərişıq”, “Azəriqaz” və dövlət datasiyası əsasında fəaliyyət göstərən yeraltı sərnişin daşıyıcı şirkət “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti və başqaları dövlət inhisarları və ya təbii inhisarlar hesab olunur. Düzdür, SOCAR səhmləri tam olaraq dövlətin balansındadır. Lakin təbii inhisar subyekti fəaliyyət göstərir.

2019-cu ilin oktyabr ayına olan statistikalara görə “Azərsu” ASC 1 milyon 500 min  artıq abunəçini içməli su ilə təmin edir. Bunların 1 milyon 400 mindən çoxu əhali,  59 minə qədəri isə qeyri-əhali kateqoriyasına aid abunəçilərdir. Dövlətin tabeliyində fəaliyyət göstərən bu qurum əhalinin içməli suya və kanalizasiya xətlərinə olan ehtiyacın qarşılayır. Burdan belə sular ortaya çıxır: Niyə dövlət bu qurumu öz tabeliyində saxlayır?...

İqtisadçı, ekspert Məhəmməd Talıblı bu sualı maraqlı cavablandırır. O qeyd edir ki, əhalinin zəruri ehtiyaclarının ödənilməsini bir neçə özəl şirkətə vermək olmaz. Çünki bir şirkətin çəkdiyi su xətləri digərinin xoşuna gəlməyə bilər. Başqa

bir şirkət yenidən yolları qazaraq, bir neçə gün müddətində əhalinin suyun kəsərək təmir işləri aparacaq. Bu da cəmiyyətdə sosial gərginliyinə səbəb olar. Əgər dövlət əhalinin zəruri tələbatları ilə məşğul olan müəssisələri nəzarətində saxlamazsa, o zaman böyük narazılıq baş verər. Deməli, inhisarların mənfi təsirlərindən çox, həm də müsbət cəhətləri vardır. Dövlət tərəfindən təbii inhisarlara dəstək verilir. Təbii inhisarların dövlət tənzimlənməsini həyata keçirmək üçün Azərbaycan Respublikasının "Təbii inhisarlar haqqında" Qanunu qəbul edilmişdir. Ümummilli lider Heydər Əliyev tərəfindən 15 dekabr 1998-ci ildə imzalanan qanun 13 maddədən ibarətdir. "Təbii inhisarlar haqqında" Qanun aşağıdakı maddələrdən ibarətdir.

Birinci maddədə qanun məqsədi göstərilir. Qeyd olunur ki, inhisar subyektləri ilə istehlakçı maraqları uyğunlaşdırılmalıdır. İkinci maddə qanun tənzimlədiyi münasibətlərdən bəhs edir. Üçüncü maddə təbii inhisarlar haqqında qanunvericiliyi ifadə edir. Dördüncü maddə qanunda istifadə olunan anlayışları aşılayır. Beşinci maddə təbii inhisar subyektlərinin fəaliyyətlərini, altıncı maddə isə bu fəaliyyət sahələrinin dövlət tənzimləmə mexanizmlərini göstərir. Yeddinci maddə tənzimləmə üsullarının tətbiq olunması üçün əsaslarını müəyyən edir. Səkkizinci maddə təbii inhisar subyektlərinə dövlət nəzarətindən bəhs edir. Doqquzuncu maddədə təbii inhisarları tənzimləyən orqanların qarşısında duran vəzifələr qeyd olunub. Onuncu maddədə təbii inhisar subyektlərinin vəzifələrinə dair qaydalar sadalanır. Onbirinci maddədə təbii inhisar subyektlərinin məhsuliyyəti, sonrakı maddədə isə bu subyektləri tənzimləyən orqanlarda çalışan vəzifəli şəxslərin vəzifələri əks edilib. Sonuncu maddə isə inhisar subyektlərinin fəaliyyətini tənzimləyən orqanların zərərin ödənilməsini tələb etmək hüququndan bəhs edir.

"Təbii inhisarlar haqqında" Qanunda ölkəmizdə təbii inhisarçılıq olan aşağıdakı sahələr qeyd olunub. Bunlar:

1. Neft və neft məhsullarının və təbii qazın magistral boru kəmərləri ilə nəql edilməsi;
2. Elektrik və istilik enerjisi xidmətləri ötürülməsi və paylanması xidmətləri;

3. Ölkədaxili və ölkəxarici dəmiryol xətlərinin, stansiyalarının və vağzalları xidmətləri;
4. Aeroport xidmətləri, uçuş zolaqları və qurğuların istismarı xidmətləri;
5. Metro yollarında yolların tunellərin və stansiyaların istismarı;
6. Su nəqiliyyatı xidmətləri, liman qurğularının istismarı, dəniz üzgüçülüyünun təhlükəsizliyi xidməti;
7. Ümumi istifadədə olan elektrik və poçt rabitəsi xidmətləri, qəbuledici verici radio və televiziya stansiyalarının istismarı və nəzarət fəaliyyəti;
8. Baş sutəmizləyici qurğular, magistral borular və su kəməri şəbəkəsi və onların üzrəindəki təzyiq və tənzimləyici qurğuların istismarı;
9. Kanalizasiya təsərrüfatında aerasiya, mexaniki tənzimləmə stansiyaları, nasoslar, baş və yağış kollektorları boru kəmərləri və bəndlərin istismarı;
10. İstilik təhcizatı xidmətləri aid edilir ("Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunu., 1998);

Ölkənin potensial büdcə vəsaitlərinin böyük bir hissəsi neft və neft məhsulları və qaz istehsalından formalaşır. 2020-ci il dövlət büdcəsində neft və qaz satışından büdcə daxilolmaları 56,1 faiz proqnozlaşdırılıb. Keçən il isə bu rəqəm 59,1 faiz olub.

Təbii inhisarlar özü dövlətin dəstəklədiyi inhisar fəaliyyətinə aiddir. Əlbəttə ki, bu fəaliyyətin tənzimlənməsinə də xüsusi ehtiyac vardır. Çünki müəssisə öz mənfəətindən dolayı əmtəə və xidmətlərə yüksək qiymətlər təyin edə bilər. Bu da istehlakçı narazılığının yaranmasına səbəb olar. Bunun üçün müxtəlif tənzimləmə xarakterli hüquqi aktların tətbiq olunmasına ciddi ehtiyac vardır.

# III FƏSİL. STRATEJİ YOL XƏRİTƏSİNƏ ƏSASƏN RƏQABƏTQABİLLİYYƏTLİ İQTİSADİYYATİN FORMALAŞMASI VƏ ANTİİNHİSAR TƏNZİMLƏNMƏ MODELLƏRİNİN İQTİSADİ ANALİZİ

## 3.1. Milli bazarlarda rəqabət mühitinin təmin olunmasında dövlət tənzimləməsinin təkmilləşdirilməsi prioritetləri

Beynəlxalq iqtisadi münasibətlərə inteqrasiya şəraitində inhisarçılıq fəaliyyətinin məhdudlaşdırılması, azad rəqabətə meyilli istehsalın effektivliyinin artırılması, bazara mənfi təsir göstərən amillərə qarşı dövlət tənzimləməsi mexanizmlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. İnhisarçılıqla mübarizədə dövlət orqanları və vəzifəli şəxslərin qarşısında duran əsas vəzifələr aşağıdakı kimi qruplaşdırılır: a) Sahibkarlara və istehlakçılara qanunvericiliklə müəyyənləşdirilmiş rəqabət siyasətinin iqtisadi baxımdan üstünlüklərinin izah edilməsi; b) Rəqabəti məhdudlaşdıranlara qarşı diskvalifikasiya tədbirlərinin görülməsi və zəruri hallarda cinayət məhsuliyyətinə cəlb edilməsi; c) Yoxlamaların aparılması, qeyri-formal və əsassız üstünlüklərin aradan qaldırılması; d) Sahə üzrə təsərrüfat subyektlərinin sayına nəzarətin gücləndirilməsi; e) Yeni bazar iştirakçılarına mənfi təsir göstərən inzibati maneələrin ləğv edilməsi; və.s

Tarixi-xronoloji prinsiplərə əsaslanaraq, araşdırmalar sübut etmişdir ki, inhisarizm ilk dəfə olaraq merkantilistlərin fəaliyyətində görsənmişdir. Merkantilistlər xarici ticarəti üzərində dövlət nəzarətini tətbiq etməklə dövlət inhisarını ön plana çəkirdi. Kapitalizm proseslərinə ilk fərdi yanaşma məhz merkantilistlərin fəaliyyətində meydana gəlmişdir. Çünki iqtisadi məktəb "tacirlik" idea və prinsiplərini özündə əks edirirdi. Sonrakı dövrlərə nəzər salsaq, inhisara meyilli fəaliyyətlərə aşağıdakılar amillər səbəb olmuşdur:

1. Maksimum mənfəət götürmək niyyəti;
2. Fərdiçilik fəaliyyəti;
3. İnsanların daxili təbiəti ;
4. İstehsalın təmərküzləşməsi;

Neoliberallarizm məktəbinin nümayəndələri inhisarı “birtərəfli tələb”, “birtərəfli təklif” olduğu zaman yarandığını düşünürdülər. O deməkdir ki, hər hansı bir məhsulun istehsalı və satışı bir subyektin əlində cəmləşirsə, bu zaman inhisarçı meyillilik formalaşır. Lakin müasir məktəbin nümayəndələrini inhisara “xalis” rəqabət prizmasından yanaşırdı. Azərbaycanlı iqtisadçı alim Əvəz Bayramov “inhisarizm” əsərində yazır ki, təkcə “xalis” yox, “kamil” rəqabət anlayışları da qəbuledilməzdir. İqtisadçı bu fikrinə bu cür izah verir:

“Kamil rəqabət ümumiyyətlə, rəqabətin yoxluğu deməkdir. Həqiqətən də ayn-ayn korporativ mənafelərdən çıxış edən bazar subyektlərindən hansı məntiqlə rəqabət mübarizəsində “insaflı” olmalarını tələb etmək mümkündür? Əgər rəqabət “qeyri-müəyyənlikdən” doğursa (nəticəsi məlum olan hadisə rəqabət yarada bilməz) və “mənə məxsus olmalıdır” şüarı altında hərəkətə gəlirsə, onda hansı “kamillikdən” danışmaq mümkündür. Məhz bu baxımdan K.Marksın “...İnhisar və rəqabətin sintezi formula yox, hərəkətdir” fikiri çox sönük görünür. Həmin sintezin inhisarçı rəqabət şəklində məhz formula olduğunu G.Çemberlin yuxarıda söz açdığımız əsərində inandırıcı dəlillərlə sübut etmişdir. Beləliklə, “klassik” bazarın tədqiqatçıları inhisarçıların meydana çıxmasını kapital və istehsalın təmərküzləşməsi prosesi ilə əlaqələndirirlər və bu araşdırdığımız problemdə yeganə cəhətdir ki, fikir yekdilliyi mövcuddur” ( Bayramov Ə.İ.İnhisarizm, 2005., 40 s ).

Hələ qədim dövrlərdən indiyə kimi bir sıra nəzəriyyə və iqtisadi fikirlərdən belə nəticəyə gəlmək olar ki, inhisarçılıq problemi daimi təhlil olunan mövzulardan olub. Lakin qeyd olunan fikirlər yekdil olmayıb. Müxtəlif iqtisadi prosesləri təhlil edən alimlər məsələyə özünəməxsus tərzdə yanaşmışlar. D.Natter, P.Samuelson, C.Stiller iddia edirlər ki, istehsalın təmərküzləşməsi yüz faizlik inhisarı yarada bilmir. Qeyd edirlər ki, hazırki dövrdə istehsal təmərküzləşməsi baş vermir (təbii inhisarlar istisnadır).

Bu fəaliyyətə müsbət rəy verən Lifman, Risser, Hevemis və digərləri bazar iqtisadiyyatı dövründə inhisarçı yanaşmanı dəstəkləmiş onu bazarın ayrımaz atributu adlandırmışlar. İnhisara radikal mövqe göstərən Robinson, Qobson, Lansbıırq, Sraffa isə liberal alış-satış sisteminin zəruriliyini qeyd edirdilər.

Ümumiyyətlə, inhisar prosesinə 2 cür baxmaq olar:

1) İstehsalın və satış prosesinə hökmranlıq edən iri korporasiyadır. Yəni tarixi xronoloji baxış nəticəsində deyə bilərik. Bazar iqtisadiyyatının yaranan dövrdə ziddiyyətlərin olması, bu ziddiyyətlərdən böhran şəraitini yetişdirirdi. Səbəb isə azad rəqabəti məhdudlaşdırmaq, inhisar mövqeyini möhkəmləndirmək idi.
2) Bazar vəziyyətidir və bazarda tək satıcı anlamın verir. Yəni bu cür yanaşsaq, müəssisənin böyüklüyü və ya kiçikliyi inhisarçılığa aiddiyyatı olmayacaq. Başqa sözlə, ola bilər ki, kiçik müəssisə inhisarçı mövqeyində, iri korporasiya isə ( əgər bazar payı azdırsa) qeyri-inhisarçı mövqedə çıxış edər.

Yuxarıda qeyd olunanlardan, bu nəticəyə gəlmək olar ki, inhisar həm xüsusi imtiyaz, həm iri istehsal, həm də tək satıcı kimi izah olunur. İnhisar təkcə bazar iqtisadiyyatında deyil, başqa ictimai sferalarda da özünü göstərə bilər:

a) İdeoloji inhisar
b) Hakimiyyət inhisarı
c) Siyasi inhisar və.s (Bayramov.Ə.İ.,İnhisarizm.,2002, səh. 42).

İnhisarı iki formada nöqteyi-nəzərdən keçirək: 1) İctimai-iqtisadi münasibətlərin xüsusi forması kimi; 2) Bazar atributu olaraq.

Qeyd olunanlar mahiyyət cəhətdən deyil, bəşəriyyətin inkişaf tarixində əməliyyətini səciyyələndirir. Məsələyə hansı formadan yanaşsaq da, inhisar iqtisadi "fərdiçiliyin" kulminasiya mərkəzi kimi çıxış edir. İqtisadi inhisarizm termin olaraq 150 il əvvəl meydana gəlmişdir. Ancaq qeyri-əqli proses olaraq bəşər cəmiyyətinin bütün dövrlərində mövcudluğu təsdiqlənib.

İnhisarçılığın 150 il qabaq yaranması fikirləri ticarətin təşəkkül tapması ilə əlaqələndirilir. Çünki inhisarçı fəaliyyət ticari əməliyyatları zamanı ortaya çıxır. İqtisadi strategiya, daxili və xarici siyasət, iqtisadi qanunvericilik, hökümətlə əlaqələr və korrupsiya, dövlət aparatının formalaşdırılmasında iştirak, siyasi partiya, siyasi liderlərin maliyyələşdirilməsi və.s amillər inhisarçılığın formalaşmasında əhəmiyyətli rol oynayır.

**Sxem 4: İnhisarizmin formalaşması mexanizmi**




**Mənbə:** Bayramov.Ə.İ., İnhisarizm., 2002, səh.48

İqtisadi və sosial proseslər daimi olaraq kənar təsirlərə məruz qalır və öz-özünü tənzimləyə bilmir. Buna görə də ölkə iqtisadiyyatında tənzimləmə tədbirlərinin aparılması səmərəli bazar münasibətlərin qorunması üçün vacibdir. Məlumdur ki, səmərəli bazar iqtisadiyyatının əsas xarakteriztikası tələb və təklif qanunlarının qarşılıqlı vəhdətindən formalaşır. Belə bazarlarda inhisarçı fəaliyyət minimuma endirilir, azad rəqabət siyasəti başlıca amil kimi götürülür. Məhsulun satış və alış dinamikası qanunauyğun şəkildə inkişaf edir. Lakin iri firmanın və ya korporasiyanın bazara daxil olaraq əsassız qiymət diktə etməsi ilə kiçik firmaların fəaliyyətin dayandırır. Bazarda inhisar rejimin olması keyfiyyətdən asılı olmasan məhsul qiymətinin artmasına səbəb olur ki, bu da istehlakçı məmnunluğun aşağı salır, sosial narazılıqlar yaradır. İstehlakçı məmnunluğunun sıfıra enməsi tələb və təklif nisbətində qeyri-bərabərliyə gətirib çıxarır. Bu halların baş verdiyi zaman adiyyatı dövlət orqanlarının bazara müdaxiləsi qaçılmazdır. Əlbəttə dövlət bazara müdaxilə etməsi əvvəlcə yumşaldıcı xarakter daşımalıdır. Yumşaldıcı tədbirlər dedikdə vergi və rüsumları azaltmaq, istehsal prosesinə dəstək olmaq nəzərədə tutulur. Əgər inhisarçı şirkət qiymət siyasətində dəyişikliklər etməsəzsə, radikal müdaxilələr edilir. Radikal müdaxiləyə cərimələrin yazılması, subyektin bölünməsi və.s tədbirləri aid edilir.

Azərbaycanda antiinhisar siyasətinin hüquqi əsasları a 4 mart 1993-cü il tarixli “Antiinhisar fəaliyyəti haqqında”, 2 iyun 1995-ci il tarixli “Haqsız rəqabət haqqında”, 19 sentyabr 1995-ci il tarixli “İstehlakçı hüquqlannın müdafiəsi

haqqında" qanunlar , 12 mart 1999-cu il tarixli "Təbii inhisarlar haqqında" qanunvericilik aktları ilə müəyyən olunmuşdur.

Milli iqtisadiyyatda antiinhisar haqqında qanunlar əsasən təbii inhisarlara dövlət nəzarətinin təmin edilməsi məqsədi ilə hazırlanıb. Demək olar ki, Təbii inhisarlar haqqında qanunvercilik qəbul edilməzdən əvvəl bu fəaliyyət sahələrinə antiinhisar siyasəti elədə çox aparılmırdı. Məsələn: XX əsrin son illərində "AzərKimya" şirkətinin dövlət büdcəsində mədaxil payı bir faiz qiymətləndilirdi, lakin istehsal olunan məhsul ölkə sənayesinin 1\5 hissəsini təşkil edirdi. Təbii inhisar haqqında qanunvericilik sənədi hazırlandıqdan sonra müəssisələrə dövlət nəzarəti artırıldı. Dövlət hətta təbii inhisarlara datasiya ayırmaqla qiymət siyasətini həyata keçirir. Məsələn: "Bakı Metropoliteni" dövlətdən datasiya almaqla əhaliyə xidmət göstərməkdədir. Halbuki gediş haqqı üçün ayrılan məbləğ metronun şəxsi vəsaiti hesabına fəaliyyət göstərməsi xərclərin 1/3-nə bərabərdir.

Dövlət tərəfindən rəqabət mühitinin mühafizəsini təşkil etmək üçün hər cür inhisarçı fəaliyyətini məhdudlaşdırmağa çalışır. Məhdudlaşdırma aşağıdakı kimi aparılır:

1. İnhisar fəaliyyəti həm proses olaraq, həm də vəziyyət olaraq dayandırılması;
2. İstehlakçı hüquqlarının mühafizəsi, istehlakçı məmnunluğunun artırılması;
3. Kiçik və orta biznesin inkişafına yardım göstərilməsi;

İnhisarçı rejimin iqtisadiyyat üçün təhlükəsini nəzərə alaraq bu problemin təhlil olunması perspektivlərinin artırılmasına ciddi zəruriyyət yaranıb. Məlumdur ki, hər bir dövlətin spesifik iqtisadi münasibətlər sistemi mövcuddur. Azərbaycanda bazar payı 35%, aktivlərin ümumi dəyəri minumum əmək haqqı məbləğinin 75 min mislindən çox olduqda təsərrüfat subyekti inhisarlaşmış hesab olunur (Sxem:5).

Göstərilən şərtlər 1 müəssisənin payına düşən bazar payına əsasən təyin olunur. Eyni məhsulu bir neçə şirkət bazara təqdim etdikdə rəqəmlə dəyişir. Əlbəttə, inhisarçı fəaliyyətin tam məhdudlaşdırılması mümkün deyildir. Bu baxımdan iqtisadçılar qeyd edirlər ki, iqtisadiyyatda inhisarçı fəaliyyət hər zaman olacaq. Bunun səbəbi bazarın böyüklüyüdür.

**Sxem 5: İnhisarçı təsərrüfat subyektini göstərən mexanizm**




**Mənbə:** i.e.d.,prof. Əvəz Bayramovun İnhizarizm kitabının məlumatlarına əsasən müəllif tərəfindən hazırlanmışdır.

İqtisadiyyatda davamlı olaraq rəqabətqabiliyyətliliyi artırmaq üçün xüsusi bölmənin payının artırılmasına ciddi ehtiyac vardır. Çünki bazar iqtisadiyyatının əsas prinsiplərindən biri də liberal iqtisadiyyatın dəstəklənməsidir. Azərbaycan hökuməti çalışır ki, iqtisadiyyatımızda özəl bölmənin sayı artırılsın. Sahibkarlığa güzəştli kreditlərin verilməsi, subsidiyaların ayrılması, sahibkararlığın inkişaf etdirilməsində xüsusi dövlət dəstəyinin göstəricisidir. Görülən tədbirlərin nəticəsi olaraq 2019-cu ildə özəl bölmənin ÜDM-də payı 84 faizə çatmışdır. Son illərdə bütün sferalarda özəl bölmənin payı sürətlə artırılır. Liberal iqtisadiyyatın əsas prinsiplərindən biri də əlverişli biznes və inverstisiya şəraitinin yüksək səviyyədə olmasıdır. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlara görə muxtar respublikanın sənayesinin 94,5 faizi özəl sektorunun payına düşüb. Bu da keçən ilə nisbətdə 1,3 faiz çoxdur.

Dövlət büdcəsində resurslardan gələn gəlirlərin payı çox olan ölkələrdə davam iqtisadi inkişafı təmin etmək üçün qeyri-resurs sahələrinin böyüdülməsi labüd məsələlərdən biridir. Milli iqtisadiyyatımızın qarşısında əsas prioritetləri də neft-qaz məhsullarından asılılığı minumuma endirmək, qeyri neft sektoru üçün səmərəli biznes mühitini yaratmaqdır. Səmərəli bazar iqtisadiyyatının tələblərindən biri də özəl sektorun payının artırılması, tələb və təklif qanunlarının düzgün işləməsini təmin etməkdir. Milli Məclisin deputatı, İqtisadi siyasət, sənayə və

sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə 2019-cu ilin yekunlarını şərh edərkən bildirib ki, son 16 ildə ölkə iqtisadiyyatı 3,2 dəfə böyüyüb , sahibkarlıq subyektlərinin sayı 4,3 misli qədər artıb, xüsusi təsərrüfatın payı artaraq ÜDM-də 84 faizdən, məşğulluqda isə 75 faizdən çoxdur. Statistika Komitəsinin məlumatlarına illər üzrə görə Azərbaycanda Ümumidaxili məhsulda qeyri dövlət bölməsinin payı 2015-ci ildən bəri hər il müəyyən nisbətdə böyümüşdür ( 2018-ci il istisna).

**Cədvəl 3: Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı, müvafiq illərin cari qiymətləri ilə, faizlə**

| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| **Ümumi daxili məhsul - cəmi** | **81,9** | **81,2** | **83,7** | **83,8** | **84,7** | **85** |
| Sənaye | 86,1 | 83,0 | 87,6 | 87,9 | 89,6 | 89,3 |
| Tikinti | 84,3 | 84,5 | 86,8 | 84,6 | 80,2 | 82,9 |
| Kənd təsərrüfatı | 99,8 | 99,8 | 99,9 | 99,9 | 99,9 | 99,9 |
| Ticarət və xidmətlər | 99,8 | 96,6 | 96,6 | 99,7 | 98,8 | 99,7 |
| Nəqiliyyat | 78,5 | 81,7 | 82,2 | 82,4 | 83,1 | 83,4 |
| Rabitə | 80,0 | 81,0 | 80,5 | 81,2 | 82,0 | 82,4 |
| Sosial və sair xidmətlər | 52,2 | 57,8 | 58,0 | 56,1 | 56,4 | 60,0 |

**Mənbə:**Dövlət statistika Komitəsi, 2020
https://www.stat.gov.az/search/?q=%C3%9Cmumi+daxili+m%C9%99hsulda+qeyri-d%C3%B6vl%C9%99t+b%C3%B6lm%C9%99sinin+pay%C4%B1%2C+m%C3%BCvafiq+ill%C9%99rin+cari+qiym%C9%99tl%C9%99ri+il%C9%99%2C+faizl%C9%99

Cədvələ əsaslanaraq deyə bilərik ki, ölkəmizdə əksər sektorlarda qeyri-dövlət bölməsinin rolu getdikcə artmaqdadır. Belə ki, ümumidaxili məhsul 2014-cü ildə 81,9 faiz təşkil edirdisə, 2019-cu ildə bu rəqəm 3,1 faiz artaraq 85 faizə, sənayə sferasında 3,2 faiz artaraq 89,3 faizə, kənd təsərrüfatı sahəsində 0,1 faiz artaraq 99,9 faizə, nəqiliyyat sahəsində 4,9 faiz artaraq 83,4 faizə, rabitə sahəsində 2,4 faiz artaraq 82,4 faizə, sosial və sair xidmətlər 7,8 faiz artaraq 60 faizə yüksəlmişdir. Cədvəl məlumatlarından bəlli olur ki, 5 il ərzində cüzi azalma tikinti və ticarət və xidmətlər sahəsində qeydə alınıb. Belə ki, 2014-cü ildə tikinti sektorunda 83,4 faiz özəl bölmənin payı olubsa, 2019-cu ildə bu rəqəm 0,6 faiz azalaraq 82,9 faizə, ticarət və xidmətlər sferasında 0,1 faiz azalaraq 99,7 faizə çatmışdır (Cədvəl:3). Bəs azalmanın səbəbi nədir?... Məlumdur ki, 2015-ci ildə dünya bazarlarında neftin qiyməti kəskin şəkildə aşağı düşdüyündən ölkəmizdə 2 dəfə devalvasiya

hadisə baş verdi, dollar manata nisbətdə 100 faiz bahalaşdı, bank sistemi böhran vəziyyətinə düşdü, valyuta nisbətlərində ÜDM azalmışdır. Nəticədə, beynəlxalq və milli rəqabətqabiliyyətlilik zəifləmiş investisiya qoyuşuna mənfi təsir göstərmişdir. Lakin aparılan islahatlar ölkə iqtisadiyyatının baş verən iqtisadi şoklardan növbəti illərdə uğurla çıxmağına təkan vermişdir. Statistik məlumatlar onu sübut edir ki, hazırda ölkəmizdə sahibkarlığın inkişafı üçün azad və rəqabətqabiliyyətli mühit formalaşıb.

Azərbaycanda inhisarçılıqla mübarizə tədbirlərinin həyata keçirilməsinin konseptual əsası 4 problemin eyni zaman vahidində həllinə istiqamətlənməlidir. Bu problemlər aşağıdakılardır:

a) Təkcə iqtisadi sferada deyil, həm də sosial-siyasi və ideoloji idarəetmədə prosesin bir əldə cəmləşməsinin, inhisarlaşmasının aradan qaldırılması;
b) Məhsul bazarında hakim mövqe tətbiq etmə hallarının məhdudlaşdırılması, rəqabət şəraitinin qorunmasına dövlət nəzarətinin gücləndirilməsi;
c) İri korporativləşmə zamanı inhisarçılığa səbəb olacaq amillərin minumumlaşdırılması;
d) Səmərəli rəqabət mühitinin formalaşmasına dəstək göstərmək;

Real bazar münasibətlərinə keçid şəraitində araşdırma apardığımız problemin iqtisadiyyata vurduğu təsirlər çox əhəmiyyətlidir. Həm milli səviyyədə, həm də xarici baxımdan istehsalın təmərküzləşməsinə qarşı mübarizə ənənəvi üsullarda çətinlik törədir. Çünki, qlobal iqtisadiyyata inteqrasiya mühitində mübarizə metodlarının daha da kəskinləşdirilməsini labüd hesab olunur. Ona görə də, inhisarlaşma beynəlmilən olmalıdır. Azərbaycanda bazar iqtisadiyyatı sistemini formalaşdırmaq üçün aşağıdakı problemlərin aradan qaldırılması zəruridir.

1. Məlumdur ki, Azərbaycan siyasi müstəqillik əldə etdikdən sonra, digər SSRİ-nin təsiri altından çıxan ölkələr kimi iqtisadi əlaqələri zəifləmişdir. Daxildə mal-terial, xammal, tikinti, xidmət sahələrində böhran olması, istehsal effektivliyinə böyük zərbə vurdu. Bir neçə müəssisələr fəaliyyətin dayandırmış, məşğulluq problemi artmışdır. Fikrimcə, siyasi münasibətlərin gedişatından asılı olmayaraq həm MDB dövlətləri, həm də Rusiya ilə geniş iqtisadi

əlaqələrin qurulmasına ciddi ehtiyac vardır. Bu hər iki dövlət üçün müqabil bazarının formlaşmasına stimul verə bilər.

2. Hazırda ölkəmizin əmtəə bazarında inhisarçılıq hallarına rast gəlinir. Başqa sözlə, hər bir sahə, məsələn yeyinti-ərzaq, tikinti və digər sənaye məhsullarının topdan satışı bir şəxsin əlindədir. Dövlət bir məhsulun vahid şəxsin əlində cəmləşməsinin qarşısının alınması üçün antiinhisar tədbirləri hazırlamalıdır.
3. Anttinhisar siyasəti həyata keçirilərkən ümumiyyətlə inhisarın təbii formasının toxunmamalı, digər inhisarları dağıdılmalıdır. Çünki təbii inhisarlar sosial zəruriyyətləri ödədiyi üçün onları məhdudlaşdırmaq mümkün deyil. Lakin təbii inhisarların sərhədlərinin müəyyənləşdirilməli, onlara dövlət nəzarəti artırılmalıdır.
4. Maliyyə, kredit inhisarçılığına qarşı mübarizə gücləndirilməldir.

İnhisarçılığı daimi məhdudlaşdırmaq mümkün deyil:- olub-olur və olacaq...Dövlətin əsas tədbirləri bu halların geniş vüsət almasına imkan verməməkdir. Rəqabətqabilliyyətliyin təmin olunmasının başlıca şərtlərindən biri, antiinhisar tədbirlərinin uğurlu aparılmasından asılıdır. Bu gün hakim mövqe tutan müəssisələrin çoxu dövlət məmurlarının əlində cəmləşib. Bəs bunun mənfi təsirləri nələrdir?... Qeyd etmək lazımdır ki, müəsssislərin çoxunun məmurların əlində olması firmanın vergidən və rüsumlardan yayınmasına gətirib çıxarır. Büdcəyə ödənilməli olan pullardan qanunsuz yayınma halları korrupsiya ilə əlaqədar hüquqpozmalar məhsuliyyəti yaradır. Məlumdur ki, hazırda bu rejim milli iqtisadiyyatda kəskin xarakter alıb. Tənzimləmə siyasətinin həyata keçirən dövlət orqanları korrupsiya və ya şəxsi mənafelərin üstün tutmayaraq ədalətli şəkildə qanunvericilik əsasında qeyri sağlam rəqabət üsullarından istifadə edən təsərrüfat subyektlərini aşkar etməli və qanunvericiliyə müvafiq şəkildə cəzalandırmalıdır. Əlbəttə, dövlət tərəfindən antiinhisar tədbirlərinin həyata keçirilməsi üçün maddi texniki baza olmalıdır. Çünki əgər istehsalçıya qiyməti aşağı sal tövsiyyə olunursa, o zaman dövlət müəssisənin istehsal prosesini asanlaşdırmağa köməklik göstərməlidir.

Müasir dövlət tənzimləmələri aid bir çox elmi araşdırmalar edən holland iqtisadçısı Y.Tinbergen qeyd edirdi ki, dövlətin qarşısında duran problemlər onun sərəncamında olan vasitələrdən artıq olmalıdır. Yəni dövlət gücündən artıq yük götürməməlidir (İstinad:Vəliyev.T.S.,Babayev.Ə.P.,Meybullayev.M.X., 2011, səh. 455). Aşağıdakı göstərilən sxem üzrə antiinhisar siyasətinin istehsal effektivliyinin artırılmasına, xarici təsirlərin məhdudlaşdırılmasına, istehsalçı müstəqilliyinin qorunmasına, istehlakçı suverenliyinin təminatına, xarici bazarlarda rəqabət mühitinin formalaşdırılmasına təsirləri qeyd olunub. Sxemə əsaslanaraq deyə bilərik ki, ölkədaxili inhisarçı meyilliklərinin qarşısının alınması nəticəsində müəssisənin rəqabətqabiliyyətliyinin artırılması mümkün olar (Sxem:6).

**Sxem 6: Keçid iqtisadiyyatı zamanı müəssisələrin rəqabətqabiliyyətlik probleminə makroiqtisadi baxış**




**Mənbə:** Bayramov.Ə.İ.,İnhisarizm.,2002., səh. 300.

Keçid iqtisadiyyatı dövründə antiinhisarçı siyasəti aparılması istiqaməti olaraq istehsal aktivliyinin artırılması, kənar təsirlərin məhdudlaşdırılması, xarici bazarlarda rəqabət mühitinin formalaşdırılması ölkədaxili bazarlarda inhisarçı meyilliklərin məhdudlaşdırılmasına müsbət təsir göstərməsinin şahidi oluruq.

İnhisarçı meyilliklərin qarşısını almaq üçün istehsalçı müstəqilliyinin qorunması, istehlakçı suverenliyinin təminatı əsas şərtlərdən biridir ( Sxem:6).

### 3.2. Strateji Yol Xəritəsində səmərəli biznes mühitin formalaşdırılmasında, rəqabətqabiliyyətliyin yüksəldilməsində dövlətin strateji hədəflərinin, prioritetlərinin qiymətləndirilməsi

Beynəlxalq təcrübələr sübut edir ki, hər hansı iqtisadi sistemin effektivliyinin artırılmasında, normal fəaliyyət göstərməsində dövlətin müstəsna rolu vardır. Dövlət tərəfindən həm makroiqtisadi, həm müxtəlif sahələrdə qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün hər il bir neçə proqramlar həyata keçirilir. Təsadüfi deyil ki, Dünya bankının 2019-ci il üçün hazırladığı biznes hesabatında Azərbaycan 32 pillə irəliləyərək 200-ə yaxın ölkə içərisində ilk 25-liyə layiq görülüb. Ölkəmiz 4 sahə üzrə ən çox islahat keçirmiş ölkələr sırasındadır. Bunlara "əmlakın qeydiyyatı "İnvestorlarının hüquqlarının müdafiəsi", "Kreditlərin alınması", " Müqavilələrin icrasının təmin edilməsi" aiddir. Prezidenti İlham Əliyevin 16 mart 2016-cı il tarixli 1897 nömrəli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Sərəncamına müvafiq olaraq milli iqtisadiyyatın 11 sferası üzrə, ümumilikdə 12 strateji yol xəritəsi hazırlanmışdır. Azərbaycanda iqtisadiyyatın mövcud vəziyyəti müəyyənləşdirilərək planlı hədəflər üzrə 3 stateji baxış təsdiqləndi ( Stateji baxış: 2020, Strateji baxış: 2025, Stateji baxış: "2025-dən sonrakı dövr üçün).

Aparılan sosial-iqtisadi islahatlar beynəlxalq normativlərə uyğun olaraq azad rəqabət mühitinin formalaşdırılmasına, maliyyə inkülizivliyinin gücləndirilməsinə, kadr potensialının artırılmasına, sosial rifahın yaxşılaşdırılmasına istiqamətlənmişdir. Şübhəsiz ki, qoyulan hədəflərin effektiv icra olunması milli iqtisadiyyatımızı dünya reytinqlərində yüksək sıralarda yer tutmasına yardımçı olacaq. Layihədə təkcə inkişaf prinsipləri və hədəflər deyil, eyni zamanda bütün sektorlar üzrə beynəlxalq çağırışları, GZİT təhlilini, 360 dərəcəli iqtisadi

diaqnostikanı, habelə iqtisadiyyatımızı interasiya metodu ilə makro ( milli iqtisadiyyat) və mikro ( sektorlar) səviyyələrdə əhatə edir.

Azad biznes mühitinin formalaşdırılmasında dövlətin rolunun əhəmiyyətli dərəcədə, artması fərdi biznes və təsərrüfatçılıq subyektlərininə dəstəyin göstərilməsi, struktur bölmələrində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi, həmçinin dünya təcrübəsinə adekvat inkişaf strategiyalarının qurulması investisiya yatırımları üçün səmərəli mühitin formalaşdırılması və ən əsası bu sahələr üzrə hüquqi və iqtisadi tənzimləmələr ən prioritet məsələ olaraq qarşıya qoyulub. Qeyd olunan məqsədlərə çatmağın yolu dövlətlə sahibkarların qarşılıqlı əlaqələrinin inkişaf edirilməsi nəticəsində sahibkarlıq fəaliyyətinə qeyri qanuni müdaxilələri məhdudlaşdırmaq, rəqabətədavamlılığı artırmaq və ixrac imkanlarının genişləndirilməsinə dövlət dəstəyinini təmin etməkdir. Əlverişli biznes layihələrinin həyata keçirilməsi üçün Ulu Öndər Heydər Əliyevin 27 avqust 2002-ci il tarixli, 779 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə”si və “Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydaları”ı təsdiq edildi. Fondun prioritetləri kimi fərdi təsərrüfatçılıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilmək, qeyri neft sektorunun davamlı inkişaf etdirmək, özəl bölmənin fəaliyyətini artırmaq əsas götürülmüşdür. Müxtəlif illərdə ölkə başçısının müvafiq fərmanları (2004, 2005, 2006, 2009 və 2011-ci illərdə) fəaliyyət istiqamətləri təkmilləşdirilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 31 iyul 2018-ci il tarixli Fərmanı ilə “Sahibkarlığa Kömək Milli Fondu”nun adı dəyişdirilərək publik hüquqi şəxs kimi İqtisadiyyat Nazirliyinin tabeliyinə daxil edildi. Özəl bölmənin təşviqi məqsədi ilə güzəştli kreditlərin faiz dərəcəsi 1 faiz aşağı endirildi ( 6 faizdən 5 faizə). İnnovatik texnologiyalara əsaslana yeni təsərrüfat subyektlərinin yaradılması üçün orta həcmli kreditlərin hədləri artırılaraq 1 milyona çatdırıldı. Uğurlu icra olunan proqramlar sayəsində Azərbaycan adı iqtisadi inkişaf tempinə görə dünya iqtisadiyyatında öncül mövqelərdə qərarlaşıb. Qəbul olunan layihələri şərh edərək bir sıra məqamların nəzərə alınmasına təkliflər vermək mümkündür:

**Cədvəl 4: Əlverişli biznes mühitin formalaşdırılmasında dövlətin rolunun xarakteristikası**

| **Görüləcək işlər** | **İcraçı dövlət agentliyi** | **Nəzarət Palatası** | **İcra olunan illər** |
|---|---|---|---|
| Azad rəqabət mühitinin inkişaf etdirilməsi | İqtisadiyyat Nazirliyi | Ədliyyə Nazirliyi | 2017–2019 |
| Səmərəli vergi sisteminin təşviq edilməsi | İqtisadiyyat Nazirliyi tabeliyində olan vergilər xidməti | İqtisadiyyat Nazirliyi | 2017-2020 |
| Dövlət xidmətlərinin çevikliyinin və səmərəliliyin artırılması | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət agentliyi | Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 2017-2020 |
| Azad ticarət sazişlərinin bağlanması | İqtisadiyyat Nazirliyi | Xarici İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi | 2017-2020 |
| Azad investisiya mühitinin formalaşdırılması | Komissiya | İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Azərbaycan Respublikası Sahibkarlar (işəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası | 2017–2020 |

**Mənbə:** İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin məlumatları və 2020 Gələcəyə baxış konsepsiyasına əsasən müəllif tərəfindən hazırlanmışdır

1. Əlverişli rəqabət şəraitinin yaradılması- Maliyyə sferası və real sektor arasında balans nöqtəsinin tapılması ölkəmizdə rəqabət mühitinin effektivliyinin artırılması nəticəsində mümkün ola bilər. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, iqtisadiyyatı stimullaşdırmaqla yerli xidmət və məhsulların rəqabətədavamlılığının artırılması yalnız tam rəqabət mühitində effektli olur.

2. Əlverişli vergi sisteminin müəyyənləşdirilməsi- Məlumdur ki, iqtisadiyyatın inkişaf etdirən vacib elementlərdən biri də vergi sisteminin səmərəliliyidir.

Ölkəmizdə tətbiq olunan vergi siyasəti dünya standartlarına və beynəlxalq normativlərə uyğunluğunun təmin olunması istiqamətində ədalətli, effektiv,dəqiq vergi dərəcələrinin müəyyənləşdirilməsi islahatları aparılmışdır. Vergi sistemində şəffaflığın artırılması, vergi ödəyicisi ilə vergi orqanı arasında qarşılıqlı münasibətlərin təmin olunması davamlı iqtisadi inkişafı müsbət təsirin göstərəcəkdir.

3. Vətəndaşlara xidmət sahəsində çevikliyin və səmərəliliyin yüksəldilməsi- Müasir texnologiyaların tətbiqi ilə göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsi əhaliyə münasibətdə vətəndaş məmununluğunun təmin edir, rəqəmsal iqtisadi inkişafı dəstəkləyir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli 685 nömrəli Fərmanı Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan "ASAN" xidmət şəbəkələri Azərbaycan brendi olaraq operativlik, şəffaflıq və rahatlıq prinsipləri əsasında vətəndaşlara layiqli xidmət göstərir. Dünyada ilk dəfə yaradılan bu şərait ölkə vətəndaşlarının əlavə vaxt itkisini və əlavə xərcləri minimuma endirir, elektron xidmətlərdən daha geniş istifadə olunmasını təmin edir.

4. Azad ticarət sazişlərinin bağlanması- Ölkələr arasında azad ticarət razılaşmalarının bağlanması iqtisadi üstünlüklərdən faydalanmaq baxımından çox vacib amillərdən biridir. Bu baxımdan Azərbaycan da bir sıra ölkələrlə ticarət əlaqələrini möhkəmləndirərək idxal-ixrac əməliyyyatlarının balanslaşdırılması istiqamətində davamlı şəkildə ticarət sazişləri imzalayır.

5. Azad investisiya mühitinin formalaşdırılması- Müasir dövrdə həm regional, həm də dünya səviyyəsində investisiya mühitinin yaradılması istiqamətində rəqabətqabiliyyətlilik pik nöqtədədir. Çünki birbaşa olaraq xarici şirkətlərin hər hansı bir ölkəyə investisiya qoyması, həmin ölkənin tədiyə balansına müsbət təsir göstərir, digər tərəfdən dövlət sərmayələri özəl sərmayələrlə əvəzlənir. Bütün bu proseslər dayanıqlı və davamlı inkişafa dəstək olur. Bu baxımdan ölkəmizdə aparılan struktur və iqtisadi islahatların məntiqi nəticəsi kimi sosial rifahın təmin

edilməsi, optimal investisiya mühitinin təmin olunmasını dünyaya təşviq etmək prioritet vəzifə kimi qarşıya qoyulub (Cədvəl:4).

Dünyada biznes asanlığının və əlverişliliyinin əsas göstəricisi kimi hər il "Doing Biznes" hesabatı hazırlanır. Qeyd etmək lazımdır ki, Dünya bankının tərtib etdiyi "Doing Business 2018" reytinqində Azərbaycan 57-ci sırada qərarlaşmışdır. Lakin 2019-cu ildə müxtəlif sahələr üzrə həyata keçirilən islahatların nəticəsi kimi mövqeyimiz 32 pillə irəliləyək 190 ölkə arasında 25-ci yerə yüksəlmişdir. Bundan başqa Avropa və Mərkəzi Asiya üzrə ən islahatçı 3 ölkədən biri kimi müəyyənləşib.

**Sxem 7:** Doing Business 2019-cu il üzrə islahatların dünya bankında reytinqi




**Mənbə:** İqtisadi İslahatların Təhlili və Kommunikası Mərkəzi, 2020
http://iqtisadiislahat.org/store//media/ekspert_yazilari/DB_PRESENTATION_FULL_AZE_opt.pdf

Sxem üzrə verilənlərə nəzər saldıqda, kiçik investorların maraqlarının qorunması üzrə 190 ölkə üzrə 2-ci yerə layiq görülüb. İlk onluqda biznesə başlama üzrə islahatlardır ki, bu indikator üzrə Azərbaycan adı 9-cu pillədə qərarlaşıb (Sxem:7). Əlbəttə ki, bu cür naliyyətlər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin düzgün daxili və xarici siyasətdə apardığı islahatlar sayəsində qazanılmışdır. Əlverişli rəqabət mühitinin yaradılması və dayanıqlı inkişafın təmin

edilməsi milli iqtisadiyyatımızın əsas prioritetlərinə daxil edilib. Prezident İlham Əliyevin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: Gələcəyə baxış ” inkişaf konsepsiyası yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşmasında uğurlu strateji hədəf kimi qarşıya qoyuldu. Planlı istiqamət üzrə görülən tədbirlər nəticəsində iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, iqtisadi resursdan səmərəli faydalanmaq, beynəlxalq tələblərə adekvat istehsal infrastruktur şəbəkəsinin yaradılması imkanları daha da genişləndirildi (Sxem:7).

Hazırlanan Strateji Yol Xəritəsinin seçilmiş prioritetlərinə fokuslanmaqla investorlarının maraqlarının təmin olunması istiqamətində görülən tədbirlər hesabına ölkənin işsizlik səviyyəsi azalacaq və dövlət sərmayələrinin payının mümkün qədər azalmasına səbəb olacaqdır. Bu da ölkəmizin gəlirlərinə birbaşa təsir edərək Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirəcəkdir. Nəzərdə tutulan inkişaf strategiyasına uyğun olaraq 11 sektor üzrə perspektivlər müəyyənləşdirilərək real və maliyyə sektorları arasında tarazlığın təmin olunması, fiskal və monetar siyasətin əlaqələndirilməsi makroiqtisadi sabitliyi artıracaqdır. Məlumdur ki, biznes mühitinin səmərəlinin artırılmasında vergi siyasətinin düzgün aparılması vacib şərt kimi qəbul olunur. Stateji Yol Xəritəsində önəmli islahatlardan biri də dövlət tərəfindən sahibkarlıq subyektlərinə əlverişli mühitin formalaşdırmaq məqsədi ilə “passiv vergi” sisteminin “aktiv vergi” sistemi ilə əvəz olunması, vergi siyasətinin optimallaşdırılması nəzərdə tutulur.

Özəl bölmənin inkişafına stimul yaradan prosesləri dəstəkləməklə milli iqtisadiyyatımızda əlverişli biznes mühitinin institusional əsaslarını gücləndirəcəkdir. Rəqabət qanunverciliyinin pozulması faktlarının ilkin aşkarlanması, qanuna müvafiq cəzalandırılmasının təkmilləşdirilməsi üçün ABŞ, Çexiya, Avstriya Macarıstan kimi qabaqcıl xarici dövlətlərin təcrübələrindən istifadə olunaraq, dünya təcrübəsinə uyğun hüquqi aktlar qəbul ediləcəkdir. Siyasi və biznes qərarlarının dəqiqliyinin təminatı nəticəsində ölkəmizə özəl investiyalar cəlb etmək mümkündür. Bu amillər hər zaman hökumət nümayəndələrinin diqqət

mərkəzində saxlanılmalıdır. Xarici investisiyaların cəlb olunmasına aşağıdakı amillər təsir göstərə bilər:

- Hüquqi və normativ bazanın formalaşması;
- İnvestisiya qoyulan ölkənin qonşu dövlətlərlə münasibətləri;
- Ölkədə Vergi, Gömrük, Mülki məcəllərinin təsir effektivliyi;
- İri logistika imkanları;
- İnhisarçı mövqeyin məhdudlaşdırılması;
- Hüquqi şəxslərin dövlət qeydiyyatına alınması prosedurlarının sadəliyi;
- Qanunvericilikdə sabitlik;
- Xarici investorların hüquqlarının mühafizəsi və müvafiq zəmanətlərin verilməsi
- Yaxşı idarəetmə və korrupsiya hallarının minimum olması
- Valyuta köçürmə imkanlarının effektivliyi və.s

Azərbaycanda investiya hüquqlarının təminatının qanunvericiliyə uyğun həyata keçirilməsi üçün aşağıdakı əsas hüquqi-normativ aktlar mövcuddur:

a) “Xarici investisiyaların qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu
b) “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu
c) “Kommersiya sirri haqqında” Azərbaycan Respublikasının Qanunu
d) “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu və.s

Hüquqi dövlətin əsas şərtlərindən biri də qanunların təsir effektivliyinin təmin edilməsidir. Belə ki, investor hər hansı bir sahəyə pul yatırırsa, həmin yatırımın təhlükəsizliyinə əmin olmalıdır. Xüsusi olaraq, ədalətli və qərəzsiz davranış formalaşdırılmalıdır. Məsələn: Əgər xarici investor Azərbaycanda hər hansı bir sahəyə yatırım edibsə, həmin sahədən əldə olunan gəlirin vergilər və rüsumlar ödənildikdən sonra təkrar investisiya üçün ölkədaxilində və ya ölkəxaricində valyuta köçürülməsinə icazə verilməlidir. Hazırda ölkəmizdə qanuni əsaslarla, yəni əmək müqaviləsi olan 1 milyon 555 min nəfər işçi çalışır. Onların 915 min nəfəri dövlət və neft sektorunda fəaliyyət göstərir. Digər 640 min nəfər əməkdaş isə özəl və qeyri neft sektorunda əmək fəaliyyətin davam etdirir. Hazırda ölkə üzrə minimum əməkhaqqı 250 manat civarındadır. 2020-ci ilin yanvar ayının

statistik göstəricilərinə əsasən orta aylıq əməkhaqqı 712 manat müəyyən edilib. 2019-cu il üzrə özəl sektorun ixrac əməliyyatlarının sayı 38,7%, idxal əməliyyatlarında payı isə 62% olub.

### 3.3. Milli iqtisadiyyatda inhisarlaşma hallarının qarşısının alınmasında dövlətin rolunun qiymətləndirilməsi və müxtəlif ölkələrdə qəbul olunan tənzimləmə modellərinin iqtisadi analizi

Bəşər cəmiyyətinin inkişafı dövrlərində yaşamış-yaratmış alimlər iqtisadi sistemin necə fəaliyyət göstərməsi haqqında bir çox elmi nəzəriyyələrlə çıxış etmişdir. Bəziləri radikal liberal iqtisadi sistemi dəstəkləsə də, digərləri iqtisadiyyatda dövlətin rolunu müstəsna hal kimi qəbul etmişdilər. XIX əsrdə yaşamış tanınmış ingilis mütəfəkkiri Con Stüart Millin metodoloji baxışlarına görə iqtisadi qanunlar təbii və azad formada inkişaf etməlidir. İngilis filosofunun “Azadlıq haqqında” əsərində dövlət və şəxsiyyətin qarşılıqlı münasibətlərinin sərhədləri məsələsi vardır ki, burada qeyd edir ki, dövlətin iqtisadiyyata müdaxiləsinə qarşı çıxırdı. Digər ingilis iqtisadçısı C.M. Keyns iddia edir ki, bazar hər zaman mükəmməl fəaliyyət göstərə bilməz. Makroiqtisadi sabitliyin, müəyyən zaman vahidlərində tələb və təklif qanunauyğunluğunun pozulma halları baş verir. Keyns nəzəriyyəsinin görə, böhran şəraitində dövlət iqtisadiyyata müdaxilə etməklə tam məşğulluğun təmin edilməsinə şərait yaradar, sosial narazılığın artmasının qarşısımı ala bilər. Bu vəziyyətlərdə dövlətin iqtisadiyyata müdaxilə etməsi zəruridir.

Beynəlxalq təcrübələr də sübut edir ki, iqtisadi sistemin normal fəaliyyət göstərməsi üçün zəruri müdafiə məqsədi ilə dövlətin iqtisadi tənzimləməsi qaçılmazdır. Müasir dövrdə dövlət və iqtisadiyyat arasında əlaqələr bir-birini tamamlamaqla inkişaf edir. Daxili bazarın inhisarlaşmasının qarşısının alınması üçün dövlət orqanları mütəmadi olaraq bazarı nəzarətdə saxlamalıdır. Əslində gündəlik həyatda qarşıya çıxan iqtisadi şoklar da bunu birmənalı olaraq tələb edir. Məsələn: Süni qiymət artımının baş verməsi zamanı bazarda tələb getdikcə aşağı düşür. Əgər əhalinin gəliri sabit vəziyyətdə qalan zaman məhsul qiymətləri

getdikcə artırsa,  istehlak həcmi azalmağa doğru gedir. Bu da sosial sferanın gərginləşməsi ilə nəticələnir. Bu vəziyyətlərdən çıxış yolu, dövlətin inhisarçı müəssisələrə nəzarət etməsidir.

Dünya ölkələri iqtisadi inkişaf potensialını dayanıqlı etmək məqsədi ilə fərqli iqtisadi modellərdən istifadə edirlər. Bunlar aşağıdakı tənzimləmə modellərdir:

a) Yapon iqtisadi modeli- Keyfiyyəti üstün tutaraq əhalinin əmək məhsuldarlığını işçiyə verilən əmək haqqıdan daha sürətlə inkişaf etdirilməsini üstün tutan modeldir. Bu iqtisadi inkişaf modelinin bir neçə alt sistemi vardır ki, həmin tənzimləmə üsulunun fəaliyyət istiqamətlərini daha fərqli göstərir:

- İstehsalın idarəedilməsi modeli
- Kadr idarəedilməsi modeli
- Keyfiyyətin idarəedilməsi modeli
- Yaponiya sənayə sistemi

Keçən əsrin birinci yarısına kimi Yaponiya inkişaf cəhətdən geridə qalmış ölkələr siyahısına daxil idi. Lakin son dövrlər beyin mərkəzi olaraq dünyada aparıcı mövqe tutur. Yaponiya hökuməti məhsul keyfiyyətin beynəlxalq standartlara uyğunlaşdırılması üçün aşağıdakı ardıcıllıqla tədbirlər həyata keçirir:

- İstehsalın effektivli üçün kadr heyyətinin idarə olunması
- Yeni məhsul istehsalı nəticəsində  keyfiyyətin təmin edilməsi
- Yoxlamalar əsasında keyfiyyət tədbirlərinin həyata keçirilməsi
- Əmək məhsuldarlığının artırmaq məqsədilə, məhsulun maya dəyərinin aşağı salınması
- Sahibkarlığa dəstəyin artırılması, müəssisələr üzərinə sərt nəzarətin məhdudlaşdırılması

Yapon modelində ixtisas dərəcəsinə, işin görülmə nəticəsinə, iş stajına və.s səbəblərdən asılı olaraq işçilər vahid tarif dərəcəsinə uyğun mükafatlandırılır.

Layihənin əsas məqsədi səhvlərin təkrar olunmaması, keyfiyyətin təmin edilməsidir. Məlumdur ki, yaponlular öz mənafeyindən çox millətin və dövlətin mənafelərini üstün tuturlar. Elə ona görə də, ölkə iqtisadiyyatı daimi inkişaf edir.

b) İsveç iqtisadi modeli- Bu model güclü sosial tədbirlərinə görə Yapon modelindən fərqlənir. İsveç modelinin xarakterik xüsusiyyətlərindən biri milli gəlirin yenidən bölüşdürülməsi əsasında əhalinin gəlirlərinin bərabərliyinin qorunmasıdır. Görülən tədbirlər nəticəsində istehsal növlərində yüksək ixtisaslı kadr yetişdirilməsinə stimul yaradır. Ölkənin iqtisadi potensialının çox yüksək olduğu üçün yüksək keyfiyyətli məhsul istehsal edilir. Lakin, milli gəlirin aztəminatlı ailələr arasında bölüşdürülməsi əhalinin passiv fəaliyyətə gətirmiş və bu modelin ölkənin iqtisadi inkişafına təsir dairəsini bir qədər zəiflətmişdir.
c) Amerikan modeli- İqtisadi inkişafın Amerikan modeli sahibkarlığın aktivliyinin artırılmasını, sahibkarlıq fəaliyyətinin effektivliyinin yüksəldilməsini özündə ehtiva edir. İsveç modeli ilə Amerikan modelinin oxşar xüsusiyyətləri sırasına milli gəlirin aztəminatlı ailələr arasında bölüşdürülməsini aid etmək olar. Sosial ayırmalar vasitəsi ilə əhalinin sosial təminatının gücləndirilməsinə səbəb olur. Amma modeldə "sosial ədalət" və "sosial bərabərlik" bəndləri yoxdur. Sadəcə model sosial-mədəni istiqamətdə hazırlandığı üçün sahibkarlığa verilən dövlət dəstəyi əhalinin şəxsi iş açmasına kömək edir, bu da sosial məmnunluğu formalaşdırır. Bütün bunlar ölkənin iqtisadi inkişafına müsbət təsir göstərir.
d) Türkiyə modeli- Sahibkarlığın inkişafı üçün ölkədaxili sərt tənzimləmə tədbirləri həyata keçirir. Türkiyədə müxalifətçi dairələr T.Ozal modelinin mahiyyət ehtibari ilə sosial ədalətlilik prinsipini qəbul etmədiyi üçün qeyri-humanist model hesab edir. Modelin nəzəri əsasları monetarizmi dəstəkləyir. T.Ozal modelini şərtləndirən amillər kimi liberal bazar iqtisadiyyatının genişləndirilməsi, dövlətin iqtisadiyyata minimum müdaxilə imkanları, təbii inhisarlar yaratmaq, inkişaf səviyyəsi zəif regionlarda yeni istehsal sahələrinin yaradılması,qapalı iqtisadiyyatın açıq iqtisadiyyatla əvəz olunması, xarici ticarət əməliyyatlarını artırmaq, xüsusi bölmənin inkişaf edirilməsi, izafi xərclərin aşağı salınması nəzərdə tutulur. Modelin bəzi xüsusiyyətlərindən ölkəmiz də geniş istifadə edir.
e) Cənubi Koreya modeli- Yapon modeli ilə oxşar cəhətləri mövcuddur. Əməyin iqtisadi faydası ön plana çəkilir. Bu modeldə iqtisadiyyatın tənzimlənməsinə qarşı çıxmır hətta əhalinin psixoloji həyat səviyyəsini yüksəltmək üçün dövlətin önəmli

rolunun olduğunu əsas göstərir. Lakin ictimai istehsalın inkişafında Yapon modelindən fərqlənir. İctimai inkişafın spesifik yollarını model olaraq göstərir. f) Çin modeli- İqtisadi inkişafın Çin modelində planlı bazar sistemi ön plana çəkilir. Buna baxmaraq planlı bazar tənzimlənməsi Çin modelində hiss olunmamışdır. 1992-ci ildən etibarən indiqativ planlaşdırma sistemi vasitəsilə dövlət tənzimlənməsi həyata keçirilir. XX əsrin sonlarından başlayaraq ölkədə istehsal və reallaşdırmanın yarı faizi özəl bölmələrin fəaliyyəti hesabına aparılır. Hazırda ölkəmizdə hansı iqtisadi modelinin tətbiq olunduğu qeyri-məlum, zidiyyətli məsələdir. Lakin sosial yönümlü fiskal siyasətin həyata keçirilir. Azərbaycanda sosial təbəqənin məmnunluğunun qorunub saxlanılması, təminatlı minimum əməkhaqqı standartlarının hazırlanması istiqamətində ciddi nəzarət mexanizmləri mövcuddur. Digər fəsillərdə qeyd etdiyimiz kimi milli iqtisadiyyatın tənzimlənməsinin 2 yolu var: birbaşa və dolayı yollarlar. Dolayı yollar tətbiq edilməsi heç bir istehsalçı müəssisənin maraqlarına zidd hərəkət olmadan həyata keçirilir. Dövlət tərəfindən vergi və rüsumlarda yumşaldıcı həddlər qoyulmaqla, istehsalçıları qiymət azaltmasına sövq etməkdən ibarətdir. İkinci tənzimləmə üsulu isə inzibati xarakter daşıyır. Bu üsul inhisar bazarının tənzimlənməsi yüksək çevidliklə müdaxilələri nəzərdə tutur. Məsələn: Müəssisələrin cərimə edilməsi, bazar standartlarının hazırlanması və onlar üzərində nəzarətin həyata keçirilməsi və.s

Əslində bazar iqtisadiyyatının bütün prinsipləri heç bir ölkədə doğru şəkildə ödənməyib. Araşdırmaçılar iddia edirlər ki, klassik bazar iqtisadiyyatı demək olar mövcud deyil. K. Marksın əsərlərində qeyd etdiyi klassik bazar mexanizmləri çoxdan öz əhəmiyyətini itirmişdir. Bazar iqtisadiyyatının şərtlərinin ödənilməməsinin bir şərti də bazarın öz-özünü tənzimləyə bilməməsi, nəticədə dövlətin bazara dəstək verməsidir. Şübhəsiz ki, tələb-təklif qanunauyğunluğunun pozulmasının səbəbi sahibkarın daha çox mənfəət götürmək niyyətlərindən formalaşır. Məhsula yüksək qiymətin qoyulması alıcılar tərəfindən mənfi qarşılanır. İstehlak zənbili azalır, təklif tələbi üstələyir. Belə olan zamanlarda dövlət iqtisadiyyatı tənzimləməyə çalışır. İnhisarçı müəssisənin bazarda fəaliyyəti

zamanı kiçik müəssisələrin satış qabiliyyəti çox aşağı düşür. Hətta kiçik müəssisələrin bir çoxu rəqabətə tab gətirməyərək bağlanmaq təhlükəsi ilə üz-üzə qalır. Əslində bu cür rəqabət forması qeyri-sağlam adlanır. Ona görə ki, iri holdinqlərin məhsul alışı ilə kiçik müəssisələrin alışında ciddi fərq ortaya yaranır. Bu da iri holdinqlərin məhsul istehsalçıları ilə əlaqələrinin geniş olmasına görə baş verir. Sadə bir misal olaraq göstərə bilərik ki, bir məhsuldan 10 dənə almaq istehsalçı üçün elə ciddi mənfəət qazandırmadığı üçün məhsulun maya dəyərində ucuzlaşma olmur, həmin sahibkar da məhsulu alıcılara yüksək qiymətlərlə təklif edir. Lakin iri holdinqlər 1 məhsuldan 10 min ədəd sifariş edir və istehsalçı məhsulunun daha tez satılması üçün daha nisbətən aşağı qiymətlərlə holdinqə satır. Məhsulun maya dəyəri aşağı düşdüyündən iri holdinqlər daha aşağı qiymətlərlə alıcılara məhsulu təklif edə bilir. Nəticədə kiçik müəssisələrdə satış həcmi azalır. Qeyd etdiyimiz hallar gündəlik reallığı əks etdirsə də, bu o demək deyil ki, kiçik sahibkarlıq fəaliyyəti arzuolunmaz hesab olunur. Əksinə, bəzi istehlakçılar məhsul alarkən yaxın məsafə, kassa yanındakı əhali sıxlığını nəzərə alaraq iri bazar şəbəkəsindən istifadə etmir.

Sahibkarlar hər hansı sahəyə investisiya qoyarkən önəmli halları nəzərdən keçirməlidir. İstənilən halda, iqtisadi qərarların qəbulunda risklərin kəmiyyət və keyfiyyət üzrə qiymətləndirilməsi vacib elementlərdən sayılır. Əgər hər hansı bir sahibkar və investor riskli qərarlara getmirsə, belə şəxslər durğunluğa can atan, idarəetməyə qeyri-məqbul şəxs sayılır. Ölkəmizdə dövlətin dəstəyi ilə sahibkarlıq və özünüməşğulluq xidmətlərinə maraq getdikcə artmaqdadır. Bu da Dövlət başçısının diqqət və qayğısı nəticəsində icra olunur. Güzəştli kreditlərin verilməsi, yeni başlayanlara vergi güzəştlərinin edilməsi, özünəməşğulluq prosesinin həyata keçirilməsi üçün dövlət tərəfindən iş ləvazimatlarının pulsuz olaraq əhaliyə verilməsi, dövlətin insanlara göstərdiyi qayğının bariz təzahürüü kimi qəbul edilir. Vəziyyətdən asılı olmayaraq Prezident İlham Əliyevin sosial sahələrinin inkişafına xüsusi yanaşması ölkəmizin əhalisinə verdiyi dəyərin yüksək olduğunu bir daha sübut edir. Qeyd etdiyimiz amillər iqtisadiyyata dövlət nəzarətini artırılmasının vacibliyini göstərir.

Dissertasiyaya hazırlıq ili dünya ölkələrini ağuşuna alan "COVİD-19" virusunun pandemiya halına gəlməsinə təsadüf etdiyindən və infeksion təsir olaraq ölkə iqtisadiyyatlarına vurduğu zərərləri təhlil etmək zəruryiyyəti yaradır. İlk dəfə olaraq 2019-cu ilin dekabrın ortalarında Çin Xalq Respublikasında meydana çıxan virus 3-4 ay ərzində dünya ölkələrinə təsir göstərdi. Təxminən 6 milyondan çox yoluxma, 400 min nəfərdən çox ölüm halı qeydə alındı. Dünya ölkələri virusun çox böyük təsirlərindən qorunmaq üçün sosial izoliyasiya tətbiq etməyə məcbur oldu. Nəticədə, ölkələrə giriş çıxışı məhdudlaşdırıldı, zəruri gündəlik tələbat malları istehsal edən müəssisələrdən başqa digər müəssisələrin fəaliyyəti dayandırıldı, əksər dövlət və özəl sektorda çalışan işçilər ödənişli məzuniyyətə göndərildi, otellər və restoranların fəaliyyətinə qadağalar qoyuldu, ölkədaxili regionlara nəqiliyyat vasitələri ilə giriş çıxış məhdudlaşdırıldı. Bütün bunlar dövlətə gözlənilməyən ciddi maliyyə yükü yaratdı. İnfeksiyanın iqtisadiyyata vurduğu zərbə, digər böhranyaradıcı zərbələrdən 2 xüsusiyyətinə görə fərqlənirdi:

- Qısa zaman kəsiyində bütün G7 ölkələrinin iqtisadiyyatına ciddi zərbə vurdu;
- Səhiyyə böhranın təkcə tibbi şok olaraq deyil, digər sahələri də zəiflətdi;

Əslində, dünya ölkələri bu cür viruslarla ilk dəfə qarşılaşmayıb. 2008-ci ildə Çində peyda olan SARS epidemiyası 8 min insana yoluxmuşdur. O zaman dövlətlər daha hazırlıqsız və ciddi itkilərlə üzləşə bilərdi. Lakin indi bank sektorunda yüksək kapitallaşma siyasəti güclənib və daha likvid hesab olunur, digər tərəfdən törəmə bazarlar şəffaflaşdırılıb. Bundan başqa Avropa Mərkəzi Bankı (AMB) üzv ölkələrdən limitsiz istiqrazların dəyərin ödəyərək satın ala, dəstək verə bilər. AMB hesab edir ki, pandemiya dünya ölkələrinə 400 milyarddan çox iqtisadi ziyan vuracaq, inkişaf tempi 0,5 faiz azalacaq. Məlumdur ki, Tailand kimi inkişafdan geri qalan ölkələr pandemiyadan daha çox zərər çəkəcək. Bəs ölkəmizdə vəziyyət necə olacaq?

Azərbaycan kimi ölkələrə infeksiyanın təsirinin 2 istiqaməti var. Burada ən ciddi amil kimi dünya bazarında neftin 4 dəfəyə kimi aşağı qiymətlə satılmasıdır. Neftin 1 dollar dəyər itirməsi milli iqtisadiyyata 250 milyon dollar təsir göstərir.

2020-ci ilin dövlət büdcəsində neftin qiyməti 1 barel üçün 55 dollar hesablanıb, indi isə 20 dollar civarındadır. Ancaq, düzgün qurulan fiskal strategiyalara uyğun olaraq 30 dollardan da aşağı “müdafiə yastığı” mövcuddur. Azərbaycanın stateji valyuta ehtiyatları 52 milyard dollar, Dövlət Neft Fondunun aktivlərinin məbləği isə 43 milyard dollara müəyyənləşdirilib. Azərbaycan pandemiyanın fəsadlarının qarşısının alınması məqsədi ilə dövlət büdcəsindən 80 min işsiz şəxslərə 190 manat civarında birdəfəlik ödəmə, muzdlu işçilərə dəstək üçün orta aylıq əməkhaqqının (yanvar ayı üzrə 712 müəyyən edilib) müəyyən bir hissəsini ödəyib. Bundan başqa dövlət sektorunda çalışan işçilərin aylıq maaşı saxlanılmaqla 1 ay müddətində məzuniyyətə göndərilib. Kredit, kommunal ödənişlərində güzəştlər nəzərdə tutulur. Ümumi olaraq infeksiyanın iqtisadiyyata təsirini azaltmaq üçün dövlət büdcəsindən 2,5 milyard manat pul vəsaiti ayrılıb. Şübhəsiz ki, ölkə iqtisadiyyatı qlobal iqtisadiyyatın tərkib hissəsidir. Bu baxımdan dünyada baş verən iqtisadi şokların milli iqtisadiyyata təsiri olacaqdır. Hətta, iqtisadiyyat nazirliyi ölkəmizin pandemiya dövründə gündəlik 120-150 milyon manat itirdiyin bəyan edib. Ən çox zərər turizm, nəqliyyat, ticarət, logistika sahələrinə dəyəcək, lakin Azərbaycanın iqtisadi potensialı qlobal şoklardan sığortalanmaq gücünə malikdir.

Dünyanı öz ağuşuna alan COVİD-19 virusunun ölkədə fəaliyyət göstərən inhisarçı şirkətlərin də gəlirlərinə birbaşa təsir göstərdi. Demək olar ki, bütün inhisarçı şirkətlər maliyyə itkiləri verdi. Həm təbii inhisarların, həm də digər inhisar növlərinin gəliri azaldı. Dövlət datasiyası hesabına yeraltı nəqliyyat xidməti göstərən “Bakı Metropoliteni”nin mart-aprel aylarında xidmət səviyyəsini müqayisə etdikdə sərnişinlərin mart ayında 60 faizdən çox, aprel ayında isə demək olarki sərnişinlərin hərəkəti dayanıb. 2018-ci ildə Metropolitenin uzunmüddətli aktivlərinin həcmi 2 milyard 318 milyon manatdan çox, illik şərnişin daşımadan qazandığı gəlirləri 55 milyon manat olub, büdcədən 48,8 milyon manatdan çox subsidiya almışdır. Keçən ilin statistik məlumatlarına əsaslanaraq sərnişindaşımadan gündəlik orta hesabla 150 min manat gəliri olan metropoliten, mart ayında 60%lik zərərlə 2,7 milyon manat, aprel ayında tam fəaliyyətin məhdudaşdırılması nəticəsində 4,5 milyon manat zərərlə üzləşəcəkdir. Qeyd edək

ki, 2019-cu ildə Metropoliten dövlət büdcəsindən 150 milyon datasiya alıb. Burada çox diqqət yetiriləsi məqam odur ki, yeraltı nəqliyyat xidməti dövlət inhisarıdır hesab olunur. Deməli, dövlətin maliyyə yükü postpandemiya dövründə daha çox olacaqdır.

Dövlətlə vətəndaş arasında həmrəyliyin göstəricisi olaraq Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 19 mart 2020-ci il Fərmanı ilə təsdiq edilmiş "Koronovirusla Mübarizə Fondu"na qısa vaxt ərzində 115 milyon manat vəsait toplandı. Sahibkarlar və fərdi vətəndaşlar sayəsində Fonda yığılan pulların xüsusi rejimli tibb müəssisələrinin inşasına, virusa yoluxmuş insanların gündəlik xərclərinə, təbliğat və maarifləndirmə işlərinə, monitorinqlərinin aparılmasına sərfi nəzərdə tutulur. Əlbəttə, ən böyük makro problemlərin həllini yenə də dövlət öz üzərinə götürəcək. İnfeksiyanın iqtisadi şokları gözlənilməz qlobal böhranlar yaradacağını indidən İqtisadi Əməkdaşlıq təşkilatı və Beynəlxalq Valyuta Fondu bəyan edib. Beynəlxalq təşkilatlar qeyd edirlər ki, pandemiya nəticəsində minlərlə kiçik və orta sahibkarlıq subyektləri iflasa uğurlayacaq, valyuta böhranı olacaq. Sahibkarlıq subyektlərinin fəaliyyət təminatlılığını təmin etmək üçün dövlət kiçik biznes sahələrini nəzərdə saxlamalıdır. Qurumların verdiyi bəyanatlarda bildirilir ki, dünya bu pandemiyanın iqtisadi təsirlərindən ən tezi 2021-ci ilin axırlarında çıxa bilər. Bu cür proqnozlar "COVİD-19"-un iqtisadi artımı 2 dəfə azaldacağına bir işarədir. Düzdür, inkişaf etmiş ölkələrə elə bir şok fəsadları gözlənilmir, lakin zəif inkişafda olan iqtisadiyyatlar üçün ziddi problemlər yaradacaq.

Yuxarıda qeyd olunan fikirlərə əsaslanaraq deyə bilərik ki, Azərbaycanda qısamüddətli və ortamüddətli gözlənilməz iqtisadi şoklara effektiv "müdafiə yastığı" mövcuddur. Baş verən mənfi hallar Azərbaycanın fiskal siyasətinə ciddi təsir göstərməyəcək. 2020-ci il dövlət büdcəsində sahibkarlıq fəaliyyətinin müdafiəsi və inkişaf etdirilməsinə dəstək nəzərdə tutulub. Aşağı faizli kreditlərin verilməsi, yeni başlıyan kiçik biznes subyektlərinə vergi və rüsumlarda güzəştlərin edilməsi, özünəməşğulluq xidmətinə kömək etmək üçün pulsuz avadanlıqların verilməsi paylanması iqtisadiyyatın özəl payının artırılmasına, rəqabətqabiliyyətli bazar münasibətlərinin formalaşmasına stimul verir.

Ölkə başçısı İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq inhisarçılıqla məşğul olan təsərrüfat subyektləri aşkar edilir və süni qiymət artımlarına yol verən müəssisələr və satış mərkəzi cəzalandırılır. İqtisadiyyatın səmərəli inkişafına nail olmaq üçün qarşıda duran əsas məsələrdən biri də rəqabət mühitin yaradılmasıdır. Bu həm daxili investorları, həm də xarici investorları ölkəmizə olan güvəni artırır, məkan olaraq Azərbaycanı seçmək stimulu verir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Təqdim olunan dissertasiya işinin araşdırma nəticəsi olaraq ölkəmizdə inhisar fəaliyyətin qarşısının alınması bir neçə hüquqi-normativ aktlar vasitəsi ilə qanunvericiliyin tələblərinə uyğun tənzimləndiyindən iqtisadiyyatda ciddi qüsurlar müşahidə edilmir. Statistik məlumatlara əsaslanaq son illərdə Azərbaycana həm daxili, həm də xarici investiya axınlarının artdığını görürük. Bu da ölkədə biznes fəaliyyəti göstərmək zəruri tədbirlərin düzgün aparıldığı, azad rəqabət mühitinin formalaşması deməkdir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev iqtisadi müşavirələr zamanı sahibkarlara çağırışında inhisarçılığa son qoyulmalı, süni qiymət artımına yol verməməyi bildirir. Ölkə başçısı qeyd edir ki, dövlət tərəfindən sahibkarlığın inkişafına müsbət təsir edəcək layihələr mövcuddur. Güzəştli kreditlər vasitəsi ilə təsərrüfat fəaliyyətinə stimul verilir, özünəməşğulluq proqramlarında biznes fəaliyyəti göstərmələri üçün şəxslərə dövlət dəstəyi edilir.

Sübhəsiz ki, müasir iqtisadi sistemlərdə qiymətlərin dövlət tənzimlənməsi çox da asan proses hesab edilmir. Çünki dövlət həm daxili sosial vəziyyəti gərginləşdirən və xarici-iqtisadi əlaqələrə birbaşa mənfi təsir göstərən inflyasiyanın artmasını qarşısını almalı, həm də inhisarların mənfəətinə zidd olmayan qərarlar qəbul etməlidir. Qiymətlərə nəzarət mexanizmləri ölkənin hüquqi aktların, inzibati və büdcə-maliyyə tədbirləri vasitəsi ilə aparılır. İqtisadiyyatda bazara müdaxilənin 2 mexanizmi mövcuddur:

1. İnzibati metod
2. İqtisadi metod (vergi siyasəti metodu)

İnzibati tənzimləmə üsulları əsasən fövqəladə hallarda, böhran vəziyyətində, kəskin inflyasiya şəraitində, zəruri gündəlik qida məhsullarının qiymətində dəfələrlə artım olduğu zaman sosial müdafiə məqsədi ilə tətbiq edilə bilər. Belə hallar baş verdikdə dövlət tərəfindən istehlak səbətinə aid olan ilkin tələbat məhsullarının qiymət normasını müəyyənləşdirir. Əgər qiymətlərin inzibati üsullarla tənzimləməsi həyata keçirilməzsə istehlak malları kəskin qiymət inflyasiyasına uğurlayar, nəticədə sosial narazılıqlar baş verər. İqtisadi metodlar

vasitəsi ilə tənzimləmələr dedikdə dövlət büdcəsi hesabına istehsalçıların, son istehlakçıların və vergi ödəyən adi vətəndaşların maraqlarının təmin olunması üçün vergi siyasəti tədbirləri aparılır.

Ümumiyyətlə, dissertasiya mövzusu azad bazar iqtisadiyyatına qeyri-adekvat hesab olunur. Bazar iqtisadiyyatı terminində azad bazar münasibətləri təmin olunursa, dövlətin satış və ya alış prosesinə müdaxilə etməməlidir. Lakin araşdırmalar sübut edib ki, iqtisadiyyat hər zaman öz-özün tənzimləyə bilməz. Zəruri hallarda sosial məmnunluğun qorunması üçün dövlətin iqtisadi sistemlərə müdaxiləsi qaçılmazdır. Hətta inkişaf etmiş ölkələr belə qiymətlərin pozulması hallarında torpaq rentasının, uçot dərcəsinin, əmək haqqının tənzimlənməsi hesabına iqtisadiyyata müdaxilələr edir. Əlbəttə, bir çox məhsulların qiymətləri iri inhisar şəbəkələri tərəfindən müəyyənləşdir. Təəssüf ki, bazar qiyməti tələb-təklif qanununa uyğunlaşmır. Belə ki, məhsula tələb dəyişdikdə, inhisarlar ilkin müəyyən edilmiş qiymətləri qorumaqla, istehsal həcmini azaldırlar. Nəticədə qiymət sabit saxlanılmaqla, istehsal həcmin tez-tez dəyişdirirlər.

Azərbaycanda antiinhisar tənzimləmə tədbirlərinin həyata keçirilməsində uğurlu göstəricilər əldə edilib. Buna misal olaraq, ölkəmizdə 2019-cu ilin yekunlarına əsasən inflyasiya səviyyəsinin 2,6 faiz olmuşdur. İqtisadi dayanıqlılığına görə Azərbaycan inkişaf etmiş ölkələrlə eyni pillədə qərarlaşır. Beynəlxalq maliyyə hesabatlarında Azərbaycan adı yüksək pillələrdə göstərilir.

Uğurlu nəticələrə baxmayaraq ölkəmizdə iqtisadi inkişafın qorunması və daha böyük iqtisadi artımlara nail olmaq məqsədi ilə tədbirlər planı hazırlanır. Milli iqtisadiyyatın perspektivlərini müəyyənləşdirən Strateji Yol Xəritəsində qısamüddətli, ortamüddətli, uzunmüddətli dövrlərə uyğun olaraq görüləcək işlərin planı hazırlanmışdır. Dövlət başçısının xüsusi tapşırıqları əsasında dərc edilən xəritədə hər bir sahə üzrə hədəflər qeyd olunub. Sənəddə nəzərdə tutulan layihələrin icrasını təmin etmək üçün iş planı müvafiq dövlət qurumlarına təqdim edilərək müəyyən zaman intervalında qarşıya qoyulmuş məqsədlərə çatdırılmasına başlanılıb. Qısamüddətli dövrü ( 2020-ci ilə qədər) əhatə edən məsələlərdə uğurlu nəticələr əldə olunmaqdadır. Strateji planın əsas mövzularından biri də ÜDM

gəlirlərində özəl bölmənin payının payının artırılması idi. Görülən tədbirlərin bariz nümunəsi kimi, 2019-cu ilin yekunlarını əsasən, ÜDM gəlirlərində özəl bölmənin payı 84 faizə yaxın, məşğulluqda isə 76 faiz təşkil edir.

Bundan başqa, ölkəmizdə əlverişli rəqabət mühiti hesabına son illərdə ölkəmizə xarici investisiya axınları güclənib. İnvestorların Azərbaycana sərmayə qoymasının səbəbi ciddi daxili nizam-intizamın qaydaları, mülkiyyət toxunulmazlığı, beynəlxalq valyuta köçürülmələrin asanlığı, vergi və rüsumların ödənilməsində şəffaflıq, bir sözlə investorların hüquqlarının qorunmasıdır. Ölkəmizdə investisiya həcminin artırılmasının təşviqi əsas iqtisadi prioritetlər siyasətinə daxildir. Səmərəli biznes mühitinin təmin edilməsi istiqamətində beynəlxalq təcrübələr öyrənilməkdədir. Hər il investisiya layihələrinin maliyyələşdirilməsi işində dövlət dəstəyi strategiyaları hazırlanır. Dövlət başçısı tərəfindən verilən tapşırıqlara uyğun olaraq milli iqtisadiyyatda qeyri neft sektoruna xüsusi diqqət ayrılır. Statistik məlumatlara görə, 2019-cu ildə qeyri neft sektorunda artım 3,5 faiz olub. Tükənən ehtiyatlarla zəngin ölkələrdə resursdan asılılığı azaltmaq iqtisadi inkişafın dayanıqlı olmasını şərtləndirir.

Səmərəli iqtisadi sistemin qurulması üçün dövlətin bazarlara müdaxiləsi zəruri hesab edilir. Ona görə də, antiinhisar tənzimləmə tədbirlərini aparan dövlət orqanları inhisarçı birliklərin qiymət siyasətini öyrənməli və nəzarət mexanizmləri tərtib etməlidir. Sağlam milli iqtisadiyyatın formalaşdırılması üçün əsas şərtlərdən biri kimi dövlətin, millətin həm siyasi, həm də iqtisadi müstəqilliyi götürülür.

Tədqiqat işi nəticəsində aşağıdakı təkliflər verilir:

- İqtisadiyyatın rəqabətə uyğunlaşdırılması üçün mövcud təsərrüfat subyektlərinə nəzarət mexanizmləri planlaşdırılmalıdır.
- İnhisarçı müəssisələrə dövlət orqanları və onların vəzifəli şəxsləri tərəfindən qanunvericiliyə uyğun tədbirlər görülməlidir.
- Antiinhisar qanunvericiliyinin tələbləri nəzərə alınmalıdır və sahibkarlar məlumatlandırılmalıdır.
- Əlverişli investisiya mühitinin formalaşdırmaqla, xarici investorları ölkəmizə cəlb etmək.

- Ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlərə vergi güzəştləri etməklə qiymətlərin tənzimlənməsi aparmaq.
- Özəl bölmənin payının artırılması hesabına dövlətin iqtisadi yükünü yüngülləşdirmək.
- Şirkət rəhbərləri ilə görüşlərdə onları qanununvericiliyə zidd əməllərə yol verməmək haqqında təlimatlandırmaq.
- Bazarda eynicinsli məhsullar təklif edən müəssisələrin qiymət strategiyasına nəzərəti gücləndirmək.
- Haqsız rəqabətə yol verən hallara qarşı cərimə və cəzaları sərtləşdirmək.
- Bazarda rəqabət mühitinin formalaşmasına mənfi təsir edən amilləri məhdudlaşdırmaq.

Azərbaycan sağlam iqtisadiyyatın formalaşması məqsədi ilə daxili resurslarından maksimum dərəcədə istifadə edərək əlverişli islahatlar aparmaqla iqtisadiyyatın dayanıqlılığına nail olmağa çalışır. Bu istiqamətdə böyük iqtisadi potensiala malik ölkələrin təcrübəsi öyrənilir və müsbət nəticələr verən tədbirlərin gələcəkdə ölkəmizdə tətbiq olunması nəzərdə tutulur.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI


1. "Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Qanun 2012.
2. "Antiinhisar fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 4 mart 1993-cü il. № 526.
3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti haqqında Əsasnamə". Qanun 2012.
4. Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 2 iyun 1995-ci il. № 1049.
5. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və Sahibkarların maraqlarının müdafiəsi haqqında " Azərbaycan Respublikası qanunu. Bakı şəhəri, 2 iyul 2013-cü il. № 714-IVQ.
6. "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri. 15 dekabr 1998. № 590-IQ.
7. "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 30 may 2003-cü il. № 462-IIQ.
8. "Tənzimlənən qiymətlər haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı şəhəri, 30 may 2003-cü il. № 462-IIQ.
9. "Təbii inhisar subyektləri tərəfindən dövlət nəzarətində olan hərəkətlərlə bağlı razılıq almaq üçün müraciətə baxılma və bununla əlaqədar müvafiq sənəd və məlumatın təqdim olunması Qaydasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı. Bakı şəhəri, 25 dekabr 2001-ci il. № 201.
10. Abbasov A.B, Abbasov S.A Biznesin əsasları. Dərslik-Monoqrafiya. Bakı, "Elm və təhsil", 2017, 456 səh.
11. Abbasov.A.B. Biznesin təşkili və idarə edilməsi / Dərslik. Bakı: "İqtisad Universiteti" nəşriyyatı. 2011.- 464 səh.

12. Allahverdiyev H., Qafarov K.,Əhmədov Ə. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Dərslik. Bakı:” İqtisad Universiteti” nəşriyyatı, 2007, 256 səh.
13. Bayramov Ə.İ İnhisarizm. Bakı. “ Elm”. 2002. 390 səh.WBN5-8066-1498
14. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın hüquqi tənzimlənməsi. Metodiki vəsait. Bakı: “İqtisad Universiteti” – 2011. -120 səh.
15. Əzizov Y.S. Monetar tənzimləmə. Monoqrafiya. Bakı, 2014, 375 səh.
16. Kərimli I. Süleymanov N. Milli iqtisadiyyatın əsasları. Dərslik. Bakı. 2000, səh. 19-20-50.
17. Qocayev E. “Avropa Rəqabət Hüququ” “Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri” jurnalı. Bakı 2009.
18. Mustafayev F.F. Keçid iqtisadiyyatında dövlət tənzimlənməsinin makroiqtisadi aspektləri. Bakı, Elm,2008, 537 səh.
19. Şəkərəliyev A.Ş. Dövlətin iqtisadi siyasəti: dayanıqlı və davamlı inkişafın təntənəsi, Bakı-2011, 542 səh.
20. Vəliyev E.N. «Şəffaflığın təmin olunmasında maliyyə nəzarətinin rolu» // “Gənc alimlərin I Elm festivalı” elmi konfansı. 13-15 iyul 2011. səh. 157-160.
21. Vəliyev.T.S., Babayev.Ə.P., Meybullayev.M.X. “İqtisadi nəzəriyyə”. Bakı 2011. Çaşıoğlu nəşriyyatı. 691 səh.

**Rus dilində**

22. Государственное регулирование национальной экономики, под ред. Н.А. Платоновой, В.А.Шумаева, И.В.Бушуевой. М, АЛЬФА-М, ИНФРА- М, 2008.
23. Капканщиков С.Г.Государственное регулирование экономики, Москва, КНОРУС, 2006, 352с.
24. Кузнецов Юрий. Критика теоретических основ антимонопольного регулирования. Институт приватизации и менеджмента, ЭКОВЕСТ , 2002, стр. 595–613.

**İngilis dilində**

25. Ken Koury. Monopoly Strategy. ISBN-13: 978-1105854668. 2012. 194 pages.
26. Manuela Mosca. Monopoly Power and Competition. 2018. 256 pages.

27. Philip.E. Orbanes. Monopoly, Money, and You: How to Profit from the Game's Secrets of Success. ISBN-13: 978-0071808439. 2013. 288 pages.
28. Richard B. McKenzie and Dwight R. Lee. İn Defense of Monoply. 978-0-472-11615-7. Michigan publishing. 2008. 337 pages.
29. Richard Posner. Economic Analysis of Law, 8. Basım, Kluwer, Law, New York, 2011.
30. Stacy Mitchell. "Monopoly Power and the Decline of Small Business". New York. 2016. 30 pages.
31. Thomas B. Nachbar. Monopoly, Mercantilism, and the Politics of Regulation. 2005. 1313-1322 pages.

**İnternet resursları**

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, 2020 http://www.consumer.gov.az/az/article/1402
2. Azərbaycan Dövlət Statistika Komitəsi, 2019 https://www.stat.gov.az/search/?q=%C3%9Cmumi+daxili+m%C9%99hsulda+qeyri-d%C3%B6vl%C9%99t+b%C3%B6lm%C9%99sinin+pay%C4%B1%2C+m%C3%BCvafiq+ill%C9%99rin+cari+qiym%C9%99tl%C9%99ri+il%C9%99%2C+faizl%C9%99
3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2019 http://iqtisadiislahat.org/store//media/documents/qanun/Haqs%C4%B1z%20r%C9%99qab%C9%99t%20haqq%C4%B1nda%20Az%C9%99rbaycan%20Respublikas%C4%B1n%C4%B1n%20Qanunu.pdf
4. Monopoly and competition, 2019 https://www.britannica.com/topic/monopoly-economics
5. Problems of Monopoly, 2019 https://www.economicshelp.org/microessays/markets/monopoly

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 1 dekabr 2018-ci il tarixinə, min Azərbaycanmanatı ilə................ 37

**Cədvəl 2:** Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat 31 dekabr 2018-ci il tarixinə, min Azərbaycan manatı ilə............... 37

**Cədvəl 3:** Ümumi daxili məhsulda qeyri-dövlət bölməsinin payı, müvafiq illərin cari qiymətləri ilə, faizlə................................................ 48

**Cədvəl 4:** Əlverişli biznes mühitin formalaşdırılmasında dövlətin rolunun xarakteristikası........................................................................ 54

## Sxemlərin siyahısı

**Sxem 1:** Rəqabət mühitinin təmin edilməsinin iqtisadi nəticələri............... **16**

**Sxem 2:** Antiinhisar fəaliyyətin tənzimləməsi metodları............................. **29**

**Sxem 3:** Dövlətin iqtisadiyyatı idarəetmə və təsir vasitələr......................... **35**

**Sxem 4:** İnhisarizmin formalaşması mexanizmi.......................................... **45**

**Sxem 5:** İnhisarçı təsərrüfat subyektini göstərən mexanizm....................... **47**

**Sxem 6:** Keçid iqtisadiyyatı zamanı müəssisələrin rəqabətqabiliyyətlik probleminə makroiqtisadi baxış................................................... **51**

**Sxem 7:** Doing Business 2019-cu il üzrə islahatların dünya bankında Reytinqi.......................................................................................... **56**